# ƏZİZ QADINLAR, BAYRAMINIZ MÜBARƏK!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 53 (8369) BAZAR, 8 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## *Birinci vitse-prezident:* "Mənə bayram təbriklərini çatdıran bütün balaca soydaşlarımızı bağrıma basıram"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımda autizm sindromlu uşaqlara 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbriklərinə görə minnətdarlığını bildirib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Beynəlxalq Qadınlar Günü münasibətilə autizm sindromlu uşaqlar tərəfindən sevgi ilə hazırlanmış videoçarx mənə xoş, isti, işıqlı duyğular yaşatdı. Bu uşaqların simasında mənə bayram təbriklərini çatdıran bütün balaca soydaşlarımızı bağrıma basıram, hər birinə möhkəm cansağlığı, uzun ömür, xoşbəxt gələcək arzulayıram!"

# Azərbaycan qadını cəmiyyətimizin mənəvi dayaqlarındandır

**Bu gün bütün dünyada Beynəlxalq Qadınlar Günüdür. BMT Baş Assambleyası 1977-ci ilin dekabrında mart ayının 8-ni Beynəlxalq Qadınlar Günü elan edib. Bu əlamətdar təqvim dünyada gender bərabərliyinin təmini ilə bağlı mübarizənin başlanğıcı, habelə qadın hüquqlarına hörmətin yüksək nümunəsi kimi tarixiləşib.**

### Tarixdən süzülüb gələn yüksək ehtiram

Hər il mart ayının 8-i respublikamızda da dövlət səviyyəsində qeyd olunur. Bu münasibətlə ölkə rəhbəri qadınlara təbrik ünvanlayır, onları fəxri adlarla, medallarla təltif edir. Bütün bunlar Azərbaycan cəmiyyətində qadınlara olan yüksək ehtiramın ali nümunəsidir. Ümumiyyətlə isə tarix boyu Azərbaycanda özünəməxsus milli dəyərlərdən, adət-ənənələrdən irəli gələrək qadına dərin hörmətlə yanaşılıb, ana adı uca tutulub. "Kitabi-Dədə Qorqud" boylarının qadın surətləri bu gün də öz məziyyətləri ilə bəşəri ideal-ların təntənəsinə xidmət edir. Azərbaycan gerçəkliyi şair və mütəfəkkirlərə qadınları həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf etmək üçün zəngin tarixi material verib. Dahi Nizami öz əsərlərində Məhinbanu və Nüşabə kimi qadın hökmdar, əfsanəvi Fitnə və yeddi gözəl obrazlarını yaradıb. Görkəmli memar Əcəmi Naxçıvani tərəfindən ucaldılmış Möminə xatun türbəsi əzəmətli memarlıq abidəsi olmaqla yanaşı, xalqımızın qadına göstərdiyi ehtiramın parlaq təcəssümüdür.

Məğrur hökmdar Tomris, Qızıl Arslanın xanımı Qətibə xanım, qadının azadlıq hüququnu tərənnüm etmiş Məhsəti Gəncəvi, qoca Şərqin ilk diplomat qadını Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, Fətəli xanın həyat yoldaşı Tuti Bikə, Şuşada ilk ədəbiyyat məclisi yaratmış Xurşudbanu Natəvan və fəaliyyətləri əfsanəyə çevrilərək təfəkkürümüzə hopan neçə-neçə Azərbaycan qadını xalqımızın zəngin mənəvi keçmişinin müəllifləridir. Nigar, Həcər kimi qadınlar həm də mərdlik, şücaət, qəhrəmanlıq mücəssəməsi kimi qəbul edilmiş, döyüş meydanlarında həyat yoldaşlarının silahdaşı, arxa-dayağı olmuşdular.

XX əsr dünyada qadınların rolunun cəmiyyətdə artması ilə yadda qalmışdır. Azərbaycan qadını da bu dövrdə - istər Xalq Cümhuriyyəti, istərsə də, sovet hakimiyyəti illərində yaradılan imkanlardan xalqın, dövlətin, cəmiyyətin mənafeyi naminə çox səmərəli istifadə etmişdir. Azərbaycan XX əsrdə demokratik inkişaf tarixləri olan əksər dövlətlərdən əvvəl - 1918-ci ildə qadınlara seçki hüququ vermişdir.

### Dövlət qadın siyasətində yeni mərhələ

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanda qadın siyasəti yeni mərhələyə qədəm qoydu. Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk konstitusiyası qadınların kişilərlə bərabər hüququnu bir daha təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı. Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitənin yaradılmasında əsas məqsəd qadınların hüquqlarının qorunmasından və ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasından ibarət idi.

2000-ci ildə Ulu Öndər Heydər Əliyev qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzaladı. Fərmanda qadınların bugünkü inkişaf, tərəqqi dövrünə qədər keçdiyi gərgin, keşməkeşli mübarizə yoluna nəzər yetirilib, respublikamızda mötəbər və möhtəşəm qadın hərəkatının fəaliyyətinə yüksək qiymət verilib.

Ardı 3-cü səh.



# BÜTÜN QADINLARA ÖRNƏK - BİR İNCİ XANIM

**Qadın Tanrının gözəllik təcəssümü, zəriflik simvolu kimi bu həyata bəxşişidir. O, yer üzündəki ən ali titullara sahib, yüksək ana şərafətinə qiymətli bir incidir.**

**Qadın xeyrin təmsilçisi, sülhün keşikçisidir...**

**İki ali məxluqdan biri, Yaradanın yerdəki davamçısı, həyatı əbədiləşdirəndir...**

**Tarix işi, əməli, mərhəməti ilə ad-san qazanan çox qadınlara şahidlik edib...**

Azərbaycan qadını deyəndə ilk növbədə ölkəmizin birinci xanımı, Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva yada düşür...

Xalqı uğrunda fədakarlıq etmək yolunu seçib Mehriban xanım. Gördüyü işlərin böyüklüyünü, dünya miqyasındakı əhəmiyyətini düşündükdə bir anlıq sual etməyə bilmirsən ki, görəsən zərif, incə bir xanım bütün bunların öhdəsindən necə gəlir? Cavab isə çox sadədir - elə Mehriban xanımın özünün səsləndirdiyi kimidir: "Mənim üçün ən vacibi budur ki, inam duyuram. Bax, bu, həqiqətən də mənə real inam, güc verən amildir".

Təhsil, gələcəyimizin savadlı yetişməsi Mehriban xanımın həyat fəlsəfəsinin ana xəttini təşkil edir. Rəhbərlik etdiyi Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" kimi təhsil sahəsindəki layihələri uğurla davam etdirir. Bu sahədə ölkədə dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikilib, təmir edilib, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb, maddi-texniki baza möhkəmləndirilib. Ötən il Heydər Əliyev Fondunun xətti ilə Bakıda bir neçə yeni müəssisə açılıb. Mehriban xanım Əliyeva Xətai rayonunda Daxili İşlər Nazirliyinin 6 saylı uşaq bağçasının, Yasamal rayonunda 11 saylı, Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının açılışını edərək uşaqlara böyük sevinc bəxş edib. Hər yeni tədris ilində Heydər Əliyev Fondu aztəminatlı ailələrin birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatları hədiyyə edir.

Talassemiya, autizm, daun, əqli və fiziki qüsurlu, xərçəng, şəkər və digər amansız xəstəliklərdən əziyyət çəkən uşaqların sağalmaları istiqamətində bütün mümkün addımları atır. Birinci vitse-prezidentin təşəbbüsü və dəstəyi ilə Azərbaycanda Avropa səviyyəli Talassemiya, Daun, Psixonevroloji Uşaq mərkəzləri və bu qəbildən olan digər əhəmiyyətli obyektlər istifadəyə verilib. 2019-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakıda yeni "Ümid yeri" uşaq sığınacağı və Uşaq Psixonevroloji Mərkəzinin yeni korpusu açılıb. Bu müəssisələr ən müasir tibbi avadanlıqlarla təchiz olunub.

Mehriban xanım uşaqların böyük dostu, "mənəvi anası"dır. Təsadüfi deyil ki, hətta ad gününü belə kimsəsiz, fiziki qüsurlu, daun, autizmli uşaqlarla birgə qeyd etmiş, onlarla bir süfrə arxasında əyləşmiş, çıxışlarını alqışlamış, əl-ələ verərək yallı getmişdi. Bu uşaqların sevincini öz xoşbəxtliyi sanmış, ürəyi fərəhlənmişdi...

Birinci xanım heç bir uşağı valideynsiz görmək istəmir. Bunun üçün də əlindən gələn hər şeyi edir ki, onlar kimsəsizliklərini hiss etməsinlər. Düzgün təlim-tərbiyə, təhsil almalarına diqqət yetirir, gələcək həyatlarında uğur qazanmaları üçün hər cür imkan yaradır. Uşaq evlərini, internatları bitirən gənclərin işlə, evlə təmin olunmalarına xüsusi diqqət yetirir. Ailə quran gənclərə toy edir, qiymətli hədiyyələr ərməğan edir, gələcək xoşbəxt ailələrin təməlini qoyur...

Gözəlliyi, zərafəti ilə seçilən Mehriban xanım əzmi, qətiyyəti, tutduğu humanistlik yolu ilə bu gün bütün qadınlarımıza bir örnəkdir. Məhz birinci xanımın dəstəyi ilə cəmiyyətdə mövqeyi yüksələn Azərbaycan qadını həm ictimai-siyasi həyatda, həm də dövlət idarəçiliyində və bir çox digər sahələrdə uğurla təmsil olunur.

Bütün bu sadalanan və sadalanmayan yüzlərlə xoşməramlı fəaliyyətin fövqündə təəccüblü deyil ki, ilk dəfə Azərbaycan qadını dövlət həyatında yüksək səviyyədə təmsil olundu.

Ardı 2-ci səh.

# Qadınsız həyat yoxdur

**...Müqəddəs varlıqlardan biri - zərif, incə epitetləri ilə obrazlaşdırılmış qadın tarix boyu ulu Yaradının ən gözəl əsərlərindən sayılıb.**
**Ana və Vətən!**
**Bu iki müqəddəs varlıq bir-biri ilə sanki əkiz yaranıb. Bəlkə elə buna görə Peyğəmbərimiz buyurub ki, cənnət anaların ayaqları altındadır?! Ana sözünün Vətənlə qoşalaşması hər iki ifadəni bir az da qüvvətləndirir, insanlara sevdirir. Çünki bu zaman Ana Vətən obrazı yaranır.**

Ana ailəyə istilik, ruzi gətirəndir, evin dayağıdır. Ana yurddaşdır - yurd daşıdır. Pərvazlandırdığı, qanadlandırıb yuvadan uçurduğu balalarının yolunu yurdda, ocaqda daim intizar dolu baxışlarla gözləyəndir. Ana kişinin çiyindaşı, məsləkdaşı, ömür-gün dostu, həyat yoldaşıdır. Ana varlıqlar içərisində hər kəsdən başdır: baş tacıdır, namusdur, qeyrətdir. Ana həm də el-obada ağbirçək - yolgöstərəndir...

8 Mart tarixi qadın və gözəllik bayramı kimi qeyd olunur. Lakin tarixə nəzər salsaq görərik ki, bu bayram heç də romantik hadisələr nəticəsində yaranmayıb. Həmçinin "qadınlar bayramı"nın qeyd olunması daha qədim tarixə malikdir.

Bütün bunlarla yanaşı, ötən əsrin 90-cı illərindən Azərbaycan qadınları daha müqəddəs bir obraza çevrildilər, həm də səhnədə deyil, həyatda. Qarabağın qanlı-qadalı illərində dəhşətli qırğınlar törədilən, yer üzündən silinən bir yurd, yaddaşlarda daşlaşan Xocalıya dönüb isti qucağında körpəsi boğulan, yurdu dağıdılan, fəryadları qulaqlardan getməyən, diri-diri tonqallara qalanan, balalarına əli yetməyən ağbirçək bir obrazı xatırlatdı analar! Demək olmur ki, əsirlikdə, girovluqda neçə-neçə qız-gəlinlərimiz erməni vandallarının, daşnakların amansız təcavüzünə məruz qaldılar. Namusunu erməni quldurlarından qorumaq üçün qayaların başından özlərini Tərtər çayına atan ana-bacılarımızı unutmaq mümkündürmü?!

Analarımız itkin, əsir balalarını laylalarla deyil, bayatı-ağılarla harayladılar:

*Yağı, nələr eylədin?*
*Karvanımı əylədin.*
*Bir balamı apardın,*
*Bəs o birini neylədin?!*

Bəşəriyyətin yarıdan çoxunu təşkil edən qadınlar, analar - bu zərif insanlar həyatın mənası, bəzəyi və əbədi gözəlliyidir.

Ardı 2-ci səh.

# Xanımlar günü yurdumuzun bayramıdır

**Bir əsrə yaxındır ki, mart ayının 8-i Beynəlxalq Qadınlar Günü kimi qeyd edilir. Bu gün bəziləri deyir ki, bu bayramı qeyd etmək nə dərəcədə doğrudur? Fikrimizcə, belə bir müzakirəyə ehtiyac yoxdur. Müzakirə açanlar bayramı müxtəlif tarixi hadisələrlə, daha sonra yəhudi əsilli Klara Setkinin adı ilə bağlayırlar.**

Bəli, K.Setkin 1910-cu ilin avqustunda Kopenhagendə işçi qadınların ikinci Beynəlxalq konfransında çıxış edərək işçi qadınların sosial həyatda, dövlətdə siyasi hüquqsuzluqlarına beynəlxalq səviyyədə proletariatın etirazını nümayiş etdirmək üçün qadınlar gününü müəyyənləşdirməyi və onu hər il qeyd etməyi təklif etmişdi.

Təklif 17 ölkədən gəlmiş 100 qadın tərəfindən müdafiə olundu. 1911-ci ildən başlayaraq həmin gün mart ayında, amma müxtəlif tarixlərdə qeyd olunmağa başladı. 1914-cü ildən 8 mart keçirilməyə başladı. 1978-ci ilin 28 noyabrında isə BMT 8 Martı Beynəlxalq Qadınlar Günü kimi qeyd etmək haqda qərar qəbul etdi. Ona görə də 8 Mart Beynəlxalq Qadınlar Gününü qeyd edib-etməməyi müzakirə edənlərə cavab olaraq əvvəl onu demək istərdik ki, ən əsası bu təşəbbüsün kim tərəfindən irəli sürülməsi deyil, onun ideyasıdır. Bu bayram, qadınların hüquq bərabərliyi bayramıdır. Bu, bizim xalqımızın milli dəyərlərinə, adət-ənənələrinə uyğun bayramdır. Bununla biz xanımlara ehtiramımızı bildiririk. Kiminsə şəninə bayram etmirik ki! Eyni zamanda bu günün beynəlxalq səviyyədə qeyd edilməsi haqda BMT-nin qərarı var. Digər tərəfdən, bu bayram baharın gəldiyi ilk günlərdə qeyd edilir. Ona görə də belə bir günü bayram kimi qeyd etməyə etiraz etməyin heç bir yeri yoxdur.

Amma təbii ki, bu bayramı necə qeyd etməmiz müzakirə mövzusu ola bilər. Təəssüf ki, bəzi orta məktəblərdə, müəssisələrdə bu bayramdan sui-istifadə edən, maddiyyata həris adamlar da var. Şagirdlərdən, onların valideynlərindən yığılan məcburi hədiyyələr bu bayrama kölgə salmaqla, onu təşkil edənlərə nifrət hissi yaradır. Biz 8 Mart Gününü mənəvi dəyərlərimizə xidmət edən bir bayram kimi keçirməliyik.

Ardı 3-cü səh.

# Azərbaycan qadınları statistikada

**Bu ilin əvvəlinə Azərbaycanda əhalinin ümumi sayının 50,1 faizini qadınlar təşkil edib. Onların 52,1 faizi nəsilvermə qabiliyyətinə malikdir. Ötən il doğulmuş 141,2 min körpədən 46,8 faizini qız uşaqları təşkil edib.**

Qadınların sağlamlığının qorunması dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılan ən mühüm məsələlərdən biridir. Hazırda ölkədə 17 doğum evi, 130 qadın məsləhətxanası, 248 uşaq poliklinikası və ambulatoriyası fəaliyyət göstərir.

Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edir. İlkin məlumatlara əsasən, onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,2 faizdir.

Dövlət Statistika Komitəsindən aldığımız məlumatda, həmçinin qeyd edilir ki, ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 80,7, orta ixtisas təhsil müəssisələrində 78,9, ali təhsil müəssisələrində 54,7 faizi qadınlardır. Həkimlərimizin isə 66 faizi qadınlardan ibarətdir. Ümumi təhsil müəssisələrində təhsil alanların 46,7, orta ixtisas təhsil müəssisələrində oxuyanların 64,1, ali təhsil müəssisələri tələbələrinin 48,8 faizini qızlar təşkil edir.

Qadınların elmin inkişafında da müstəsna rolu var. Elmi işçilərin 58,2 faizi qadınlardır. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,5 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,2 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 8-i, müxbir üzvlərindən isə 11-i qadındır.

Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi ilkin məlumatlara əsasən, 28,5, sahibkarlar arasında 21,7 faizdir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 42,6 faizi qadınlardır.

Beləliklə, Azərbaycan qadınları ölkənin həm sosial-iqtisadi, həm də ictimai-siyasi həyatında fəal iştirak edirlər.

*"Azərbaycan"*

## 8 Mart Beynəlxalq Qadınlar Günüdür



# Bütün qadınlara örnək - BİR İNCİ XANIM

*Əvvəli 1-ci səh.*

Artıq 3 ildir ki, Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi uğurla fəaliyyət göstərir. Onun rəhbərliyi altında çoxsaylı layihələr reallaşıb, ümumiyyətlə, ölkə həyatının elə bir sahəsi olmayıb ki, diqqətindən kənarda qalsın...

Birinci xanım təkcə ölkə daxilində yox, dünya miqyasında məşğul olduğu sahələr üzrə yüksək standart müəyyənləşdirib. O, atdığı humanist addımlarla, gördüyü nəcib işlərlə, sülhün bərqərar olması üçün göstərdiyi şücaətlə bütün insanlar üçün təkrarlanması vacib örnəyə çevrilib.

Azərbaycanın dünyada təbliği, dövlətlərarası dostluq münasibətlərinin daha da möhkəmlənməsinə uğurlu töhfələr verən Mehriban xanım Əliyevanın bu fəaliyyəti hər zaman yüksək dəyərləndirilir. Ötən il Rusiya Prezidenti Vladimir Putin tərəfindən iki ölkə arasındakı münasibətlərin inkişafındakı xidmətlərinə görə Mehriban xanım Əliyevanın "Dostluq" ordeni ilə təltif edilməsi, bu il fevralın 22-də İtaliyada Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell'ordine Piano) layiq görülməsi deyilənlərin təsdiqidir.

Mehriban xanım təmənnasız olaraq bütün qüvvəsini, zamanını, vəsaitini insanların sağlam, xoşbəxt yaşaması uğrunda sərf edir, hər dəfə də vurğulayır ki, "Uğur xatirinə uğur, hakimiyyət xatirinə hakimiyyət və ambisiya mənim üçün heç vaxt aparıcı motiv olmayıb. Əsas məsələ odur ki, ehtiyacı olan insanlara kömək edəsən. Fərqi yoxdur, ictimai xadimsən, yaxud dövlət xidmətində işləyirsən - insanlığı qorumaq lazımdır. Mənə elə gəlir ki, bu, heç vaxt səhv ola bilməz, əksinə, bu, həmişə doğru yoldur".

Mehriban xanımın ailə dəyərlərinə də münasibəti özünəməxsusdur. Hər zaman çıxışlarında deyir ki, ailə ilə iş arasında düzgün tənasüb tapmaq lazımdır. İşdə nə qədər prinsipialdırsa, ailəsində də o qədər qayğıkeş ana, nənə, həyat yoldaşıdır. Ən yaxşı dincəldiyi yer isə nəvələri üçün ləzzətli xörəklər bişirdiyi mətbəxidir: "Mən öz vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən ilk növbədə həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam, beş nəvəm var və həyatımın bu hissəsinə ayırdığım diqqətin ikinci plana keçməsini əsla istəmirəm. İndiyə qədər bunu bacarmışam. Ümidvaram ki, gələcəkdə də bunu bacaracağam. Mən bişirib-düşürməyi çox xoşlayıram. Bu işlə məşğul olanda yaxşıca dincələ bilirəm. Axı dadlı yeməklər hazırlamaq da müəyyən mənada yaradıcı işdir. Mən bu işi sevirəm, bu işi görürəm və bacarıram".

Bəli, tutduğu bu müqəddəs yoldur birinci xanımımızı milyonların sevimlisinə çevirən. 10 milyonuncu vətəndaşın da adını Mehriban kimi simvolizə etmək istəyinə səbəb olan.

Təsadüfi deyil ki, hər gün yüzlərlə məktubun ünvanı da məhz Heydər Əliyev Fondu, Mehriban Əliyevadır. Bunların arasında minnətdarlıqlar da var, hansısa xahiş, problemin həlli, sağlıqla bağlı məsələlər üçün müraciət də... Və gecikdirilmədən bütün bu məktublar cavablandırılır, heç kəsin ümidi üzülmür, səsi eşidilməz qalmır.

Harada dara düşən, köməyə ehtiyac duyan, sağalmaz xəstəliyə düçar olan varsa, güman yeri Mehriban xanımdır. İşlərinin çoxluğuna, ağırlığına baxmayaraq, həmişə qayğıya ehtiyacı olan insanların, kimsəsiz körpələrin, uşaqların yanındadır. Gənclərin dəstəkçisidir, təhsillərinə təşviq edəndir. Qaçqın və məcburi köçkünlərin hayanıdır. Mədəniyyət xadimlərinin dostu, ağsaqqallarımızın əziz qonağıdır.

Hər zaman Mehriban xanım xalqımızın, xalqımız da Mehriban xanımın yanındadır...

Ən böyük mükafatı isə xeyirli iş görməsindən doğan məmnunluqdur: "İnsan gördüyü işin haqlı, xeyirli və lazımlı olduğuna daxilən inandıqda həvəslə işləyir, fiziki yorğunluq isə mənəvi məmnunluqla ödənilir".

**Günel HƏMİDLİ,**
***hüquq üzrə fəlsəfə doktoru***

# Qadınsız həyat yoxdur

*Əvvəli 1-ci səh.*







8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı Ümummilli Lider Heydər Əliyevin söylədiyi fikirlər bütün zamanlarda aktualdır: "Bu bayram, doğrudan da bizim bütün bayramlar içərisində ən gözəl bayramdır. Çünki bu, qadınlara həsr olunubdur. İnsan cəmiyyətində qadının rolu, əhəmiyyəti məlumdur. Qısaca onu demək olar ki, qadınsız insan yoxdur, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar".

Qadınlar taleyüklü məsələlərin həllinə qərar vermək səlahiyyəti əldə etməklə belə bu günün lideri rolunu oynayırlar. Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bu mənada örnək kimi beynəlxalq miqyasda Azərbaycan qadınının parlaq obrazıdır.

Qadınlarımız hələ Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanaraq ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etməyə başlamışlar.

Qadınların özünəməxsusluqları odur ki, onlar xarakter baxımından bir-birinə bənzəməzlər: zərif olduqları qədər də güclülükləri ilə diqqət çəkirlər. Onları birləşdirən yeganə bir ad var - ana! Qadınlar fərqli, analar isə eyni olurlar. Onlar istəkləri, arzuları, sevinc və kədərləri ilə bir-birlərinə bənzəyirlər. Bütün analar övlad yolunda hər cür cəfaya hazır olur - gözlərinin nurunu, saçlarının qaralığını, gecələrin bal yuxusunu balasından əsirgəmir. Beşik başından ayrılmayan ana balasının nağıllı-noğullu dünyasını qurur, onu əzizləyir...

Analar balalarına ömür qıyır, quş kimi qol-qanad verib pərvazlandırırlar.

1917-ci ildə rusiyalı qadınlar "Çörək və Sülh" şüarı ilə küçələrə çıxmış, 4 gün sonra II Nikolay taxtdan yıxılmışdır. Müvəqqəti hökumət 8 Martda qadınlara seçmək hüququnu zəmanət etmişdir.

Azərbaycanda bu bayram 1917-ci ildən qeyd olunur. 1965-ci ildən isə 8 Mart qeyri-iş günü hesab olunub. Zaman keçdikcə bu gün öz siyasi mahiyyətini tədricən itirməyə başladı. 1977-ci ildə BMT 8 Martı "Beynəlxalq Qadınlar Günü" kimi elan etdi və bununla da "mübarizə" sözü bayramın adından götürüldü və sevgi, diqqət bayramı kimi tarixə düşdü.

...Ana cəmiyyətdə də öz vacibliyini təsdiqləyən adilikdən ali kürsülərədək ucalan bir vətəndaş, həm də yaradıcıdır: xalq sənətini yaşadan xalçaçıdır, tikməçidir, əyiricidir, toxucudur... Ana müəllimdir, həkimdir, təyyarəçidir, mühəndisdir, şairdir, bəstəkardır, səhnə xadimidir, rəssamdır...

Kim deyil ki, analar?! Sənət dünyasının sevilənlərinin sırasında, önündə gedənlərdir! O, alimdir, diplomatdır - Sara xatun kimi! O, Koroğluya Nigar, Qaçaq Nəbiyə Həcərdir, bu gün isə Milli qəhrəmanlarımızın anasıdır!..

Analar müqəddəsdirlər, həm də Vətənə şəhid oğul verdikləri üçün! Analar zülmə tabedir, düşmən tapdağında qalan, tar-mar edilən yurdu dağıldığına görə! Analar dözümlüdürlər, dözülməz dərd-sərə, ağrı-acılara sinə gərdikləri üçün! Qarabağ dərdi sinələrində qaynayan analar səbirlidirlər, atalardan fərqli olaraq! Sinələrinə çəkilən bala dağını - Vətənin başı sağ olsun, - deyib çəkdiklərinə görə analar əbədilik qazanıblar! Analar böyükdürlər, ölməzdirlər!!!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Ana qarşısında səcdə fəxarətdir

Ananın böyüklüyü, müqəddəsliyi ədəbiyyatın da əbədi mövzularından biridir. Bu mövzuda ilk əsərlər şifahi xalq ədəbiyyatının müxtəlif janrlarında yaranmağa başlayıb. Özü də anaların yalnız sevgisindən, şəfqətindən, mərhəmətindən, qayğısından, nəvazişindən bəhs olunmayıb. Onların həm də fədakarlığı tərənnüm edilib.



Bu ədəbi qəhrəmanlar təkcə yaradıcı insanların təfəkküründən, xəyallarından yaranmayıb. Pərvanə tək ulusunun, el-obasının başına dolanan, ocağının odunu sönməyə qoymayan mərd analar hər zaman çox olub. Bugünədək qəhrəmanlıq, mübarizlik mücəssəməsi kimi təqdim etdiyimiz hökmdar Tomris belə analardan biri idi. Mənbələrdə yazılır ki, həyat yoldaşını vaxtsız itirən, bir dövləti idarə etmək qayğısı, məsuliyyəti çəkən Tomris bütün bunlardan öncə övladını çox sevən anadır. Bu mərd, dürüst hökmdar hiylə və namərdliklə qarşılaşır. Hökmdar Kir hələ döyüşə girməmiş gənc şahzadəni aldadaraq tələyə salır. Tomris övladının qətlə yetirildiyi xəbərini alır. Oğlu öldürülmüş ana dərdinə yenilmir, qüssəsinin, kədərinin əsiri olmur. Kirin hiyləgərliyi, namərdliyi onu qəzəbləndirir. Düşmən üzərinə hücuma keçir. İgid Tomris qəddar Kirdən intiqamını alır. Onu məğlub edəndən sonra başını kəsib bir tuluğa salır və deyir: "Mən sağ qaldım və döyüşdə səni məğlub etdim, sən isə oğlumu hiylə ilə tutmuşdun. Buna görə də səni, necə ki hədələmişdim, qanla doyduracağam". Tomirisin düşmən üzərində bu qələbəsini, mübarizliyini Herodot "Tarix" kitabında vəsf etdi. Sonra da tarixçilər, tədqiqatçılar bu barədə dönə-dönə yazdılar. Hökmdar, ana Tomrisin şücaəti ədəbiyyatın da dilinə düşdü. Əsrlərdir ki, Tomrisin adı mübarizlik, igidlik simvoluna çevrilib.

Ədəbiyyatımızda müdriklik nümunəsi kimi vəsf olunan Sara Xatun da tarixi şəxsiyyətdir. O, Azərbaycanın ilk qadın diplomatı, hökmdar anasıdır. Belə nümunələr çoxdur.

Yalnız Azərbaycan ədəbiyyatında deyil, bütövlükdə dünya ədəbiyyatında anaya həsr olunmuş ən gözəl şeirlərin birinin müəllifi, fikrimizcə, Cəfər Cabbarlıdır. O, anaya heyranlığını belə ifadə edib:

*Fəqət nə güclü, zəif bir vücud var, yahu,*
*Ki hazıram yıxılıb xaki-payinə hər gün,*
*Öpüm ayağını əcz ilə. Kimdir o? Nədir o?*
*Ana! Ana... O adın qarşısında bir qul tək*
*Həmişə səcdədə olmaq mənə fəxarətdir.*
*Onun əliylə bəla bəhrinə yuvarlansam,*
*Yenə xəyal edərəm bəzmi-istirahətdir.*

Bu şeirin qəhrəmanı da şairin təxəyyülündən yaranmayıb. Kiçik yaşlarında atasını itirən Cəfər Cabbarlı anasının kasıblıq, yoxsulluq içərisində övladlarını nə zillətlə böyütdüyünün şahidiydi. Təndirdə çörək bişirib satan, ağır işlərə qatlaşan Şahbikə ananın belə ağır güzəranın içərisində oğlunun təhsil almasını düşünməsi, Azərbaycan tarixinə, mədəniyyətinə, incəsənətinə Cəfər Cabbarlı kimi bir dahi bəxş etməsi özü böyük bir fədakarlıq idi. Belə analarımız ən böyük sevgiyə layiqdirlər.

Ədəbi-bədii nümunələrimizdə heyranlıqla təsvir olunan bütün ana obrazlarının prototipi olmasa da, müəlliflərinin real hadisələrdən təsirləndikləri şübhəsizdir. Odur ki, Azərbaycan ədəbiyyatında, eləcə də dünya ədəbiyyatında ideal ana obrazları çoxluq təşkil edir.

Hüseyn Cavidin "Ana" dramında Səlma ananın mətanəti, dözümü, mərdanəliyi oxucunu heyrətləndirir, Evinə qəbul etdiyi qonağın oğlunun qatili olduğunu öyrənən ana sarsılır. Ancaq "Qonaq Allah qonağıdır", "Qonağa zaval yoxdur" düşüncəsi ilə düşməninə aman verir. Əsər faciə ilə sonlansa da, Səlma ananın möhtəşəm obrazı oxucunun yaddaşında silinməz iz buraxır.

Yazıçı Mir Cəlalın "Bir gəncin manifesti" əsərindəki Sona ana da həyatın ağır sınaqlarından keçir. O, öz əlləri ilə toxuduğu xalçanı böyük maddi ehtiyacı olmasına baxmayaraq, ölkəsinə xoş niyyətlə gəlməmiş birinə satmaqdan imtina edir. Deyir: "İtə ataram, yada satmaram".

Bütün müharibələr ən böyük ağrını, yaranı analara vurur. Çünki onlar cəbhəyə, odun-alovun içərisinə ciyərparələrini yola salmalı olurlar. Süleyman Rüstəmin "Ana və poçtalyon" şeirindəki ana Böyük Vətən müharibəsində iştirak edən bütün döyüşçülərin analarının ümumiləşdirilmiş obrazıdır.

*Qalxırdı yatağından dan yeri söküləndə…*
*Hər qapı açılanda, hər qapı döyüləndə,*
*Dikilirdi ananın gözləri bir nöqtəyə.*
*Sevinirdi: - "Oğlumdan bəlkə məktub var!"*
\- deyə.

Dörd aydır övladından məktub almayan ananın çəkdiyi iztirabları şair belə, olduqca səmimi bir dillə təsvir edib.

Hansı cəmiyyətdə müharibə, sağalmaz xəstəliklər, aclıq, səfalət, haqsızlıq, ədalətsizlik varsa, orada anaların qəlbi narahatdır. Hətta öz evində, ailəsində rahatlıq, bolluq olsa belə, əsl analar başqalarının da övladlarını düşünürlər. Cəlil Məmmədquluzadənin məşhur "Anamın kitabı" əsərinin qəhrəmanı Zəhrabəyim ana isə bütövlükdə vətəni təmsil edir. Ana hərəsi bir ölkədə təhsil alaraq doğma ocağına dönən oğullarına baxdıqca, fərəhlənmək, qürurlanmaq əvəzinə qüssələnir. Çünki onların milli düşüncədən məhrum olduqlarını, öz ana dillərinə xor baxdıqlarını görür. "Anamın kitabı"nda deyilir: "Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar. Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhrabəyimin ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamil-həyat əziyyət edəcək: nə qədər canında nəfəs var peşiman olacaq".

Cəlil Məmmədquluzadənin "Ölülər", "Danabaş kəndinin əhvalatları" və digər əsərlərində təsvir olunan ana obrazları bir daha təsdiq edir ki, haqsızlığın, ədalətsizliyin, həllini tapmayan problemlərin olduğu cəmiyyətdə anaların gözləri yaşlı, ürəyi dərdlidir. Hüseyn Cavid də buna görə yazırdı:

***Qadın gülərsə, şu issız mühitimiz güləcək,***
***Sürüklənən bəşəriyyət qadınla yüksələcək.***

Əzab-əziyyətlə böyütdüyü övladının qədirbilməzliyi, nankorluğu bəzən anaya ən böyük dərd olur. Əli Kərim "Qaytar ana borcunu" şeirində belə oğula üz tutub:

***Deyirəm ki, o boyu, buxunu qaytar geri,***
***Deyirəm ki, varını, yoxunu qaytar geri!***
***Qaytar onun borcunu,***
***Gülüşünü, adını, sözünü qaytar geri!***
***Qaytar onun borcunu, o borc sənin***
***özünsən, özünü qaytar geri!***

\- deyib. Ən kədərlisi bir də odur ki, nə qədər dərd versə də, əməyini itirsə də, ona qarşı laqeyd, etinasız olsa da, ana heç zaman övladına qıymır. Ən çətin günündə də balasına yalnız xoşbəxtlik arzulayır.

Ulularımız belə deyiblər: "Ana haqqı ödənməz". Nə qədər çalışsaq da, sevsək, əzizləsək də yenə bu müqəddəs varlığa borcluyuq. İnsan özü hansı yaşa çatırsa çatsın, ən böyük təşvişi, kədəri anasının qocaldığını düşünməkdir. Anasının ağaran saçlarına baxdıqca bir zamanlar Cabir Novruzun kədərlə verdiyi bu sualı hər kəs özünə verir:

***Gözüm görə-görə qocalır anam,***
***Görən niyə belə qocalır anam?!.***

Qocalıq həyatın qanunauyğunluğudur. Ən əsası odur ki, anaların ürəyi qocalmasın. Bunun üçün isə övladları gözlərinin önündə sağlam, xoşbəxt olmalı, bütün bəşəriyyətdə sülh, əmin-amanlıq, firavanlıq hökm sürməlidir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Xanımlar günü yurdumuzun bayramıdır

*Əvvəli 1-ci səh.*

Azərbaycan Milli Elmlər Akademiyasının Azad Həmkarlar İttifaqı 8 Mart Beynəlxalq Qadınlar Gününün xalqımızın adət-ənənələrinə uyğun olaraq, mənəvi dəyərlərimizin təbliğinə söykənən bayram kimi keçirilməsi üçün müxtəlif tədbirlər təşkil edir. Hər bir institutda və başqa qurumlarımızda çalışan xanımların təbrik edilməsi üçün imkanlarımıza uyğun işlər görülür.

Ümumiyyətlə, Azərbaycan xalqının öz qadınlarına qayğısı hər zaman diqqət mərkəzində olub. Hələ 1918-ci il mayın 28-də Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində bərabərhüquqluluq prinsipinin, seçmək və seçilmək hüququnun təsbit edilməsi qadınların siyasi həyatda fəal rol oynaması üçün mühüm bir hüquqi baza oldu. Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkədir. Sovet hakimiyyəti illərində də xalqımız hər zaman qadınlarımıza xüsusi diqqət və qayğı ilə yanaşıb.



1993-cü ildə, Ümummilli Lider Heydər Əliyev yenidən ölkəyə rəhbərlik etməyə başlayandan sonra ciddi diqqət verdiyi məsələlərdən biri də gender bərabərliyi oldu. Ulu Öndərin fərman və sərəncamları ilə ölkəmiz “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında”, “Qadınların siyasi hüquqları haqqında”, “Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında” beynəlxalq konvensiyalara qoşuldu. 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası qadınlarımızın hüquq bərəbərliyi sahəsində ciddi hüquqi baza yaratdı.

1998-ci ilin 14 yanvarında Ulu Öndərin fərmanı ilə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi də yaradıldı. Həmin il ölkəmizdə Azərbaycan Qadınlarının Birinci Qurultayı keçirildi. 2000-ci ildə, martın 6-da dövlət başçısının imzaladığı “Azərbaycanda dövlət-qadın siyasətinin həyata keçirilməsi haqqında” fərman qadınlarımızın mühüm rəhbər vəzifələrdə kişilərimizlə birgə təmsil olunmasına şərait yaratdı.

Prezident İlham Əliyev də qadınlarımıza qayğı məsələsini hər zaman diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyevin 2006-cı il fevralın 6-da imzaladığı fərmanla “Qadın Problemləri üzrə Dövlət Komitəsi” bazasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Həmin il oktyabrın 10-da “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” qanunun qəbul olunması qadınlarımızın hüquq və vəzifələrinin qorunması sahəsində daha bir ciddi addım olmaqla onların cəmiyyətdəki rolunu artırdı.

Bu gün ölkəmizdə qadınların hüquqları hərtərəfli qorunur. Onların siyasi, əmək və təhsil hüquqları cəmiyyətdə çox geniş şəkildə fəaliyyətlərinə imkan verir. Qadınlarımızın cinayət, cinayət-prosessual və cəza-icra hüquqlarında kişilərlə müqayisədə müəyyən güzəştlərinin olması da xalqımızın zərif cinsə ehtiramının, qayğısının təcəssümüdür.

Respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın timsalında Azərbaycan qadının cəmiyyətdə, ictimai-siyasi həyatda güclü mövqeyi daha aydın görünür. Eyni zamanda Heydər Əliyev Fondunun da rəhbəri, UNESKO və ISESCO-nun xoşməramlı səfiri olan, bu adlara layiq işləri ilə beynəlxalq səviyyədə də çox geniş tanınan Mehriban Əliyevanın fəaliyyəti Azərbaycan qadınlarına böyük ruh verir. Mehriban Əliyeva Dağlıq Qarabağ probleminin xalqımızın mənafeyinə uyğun olan həlli məsələsinə, mədəniyyətimizə, sosial problemlərin həllinə, idmanın inkişafına, ölkədə ahəngdar bir mühitin yaranmasına, ən müasir tələblərə cavab verən abadlıq işlərinin aparılmasına böyük diqqət yetirir.

Heydər Əliyev Fondunun vitse-prezidenti və Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın fəaliyyəti də diqqətəlayiqdir. Onun fəaliyyəti bütün gənclərimizi, xüsusi ilə gənc qızlarımızı xalqımızın tərəqqisi yolunda geniş fəaliyyətə ruhlandırır. Leyla xanım ölkəmizin dünyada təbliğində, xaricdəki Azərbaycan gənclərinin təşkilatlanmasında, mədəniyyətlər arasında dialoqun qurulmasında mühüm rol oynayır. Onun apardığı “Xocalıya ədalət!” kampaniyası artıq öz bəhrəsini verməkdədir.

Dövlətimizin xanım elmi işçilərə qayğısı da ilbəil artmaqdadır. Son illər onların əməkhaqları bir neçə dəfə artırılıb. AMEA-nın bir qrup alimi tamamilə ödənişsiz olaraq mənzillə təmin edilib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, eyni zamanda AMEA Azad Həmkarlar İttifaqının da xanımlara qayğısı hər il artmaqdadır. Artıq bir çox alimlərimizə Xızıda torpaq sahələri ayrılıb. AMEA işçilərinin müalicəsi, istirahətləri də üçün kompleks tədbirlər görülməkdədir. Bütün bunlar mühüm stimullar olmaqla Azərbaycanın xanım alimlərini xeyli ruhlandırır, onların fəaliyyəti üçün geniş imkanlar yaradır.

***Habil QURBANOV,***
***professor, hüquq üzrə elmlər doktoru,***
***AMEA Azad Həmkarlar İttifaqının sədri***

# Azərbaycan qadını cəmiyyətimizin mənəvi dayaqlarındandır

*Əvvəli 1-ci səh.*

Fərmanda xüsusi vurğulanmışdır ki, Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla, qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsilçiliyi təmin edilməlidir. Həm dövlət komitəsinin yaradılması, həm də fərmanın imzalanması respublikamızda qadın siyasətinin həyata keçirilməsində yeni mərhələ açdı.



## Qadınlar bundan sonra da inkişaf salnaməsinə parlaq səhifələr yazacaqlar

Bu gün respublikamızda dövlət qadın siyasəti, bu istiqamətdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələr ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. Prezident İlham Əliyev qadınların cəmiyyətdəki roluna və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına, irəli çəkilmələrinə diqqətlə yanaşır. Prezident İlham Əliyevin hər il 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbriki dövlət başçısının zərif cinsin nümayəndələrinə diqqətinin və ehtiramının təcəssümüdür.

Dövlət başçısı 8 Mart münasibətilə təbrikində Azərbaycan qadınlarının tariximizin hər bir dövründə cəmiyyətin mənəvi dayağı olduqlarını bildirib, respublikamızın qazandığı uğurlarda onların rolunu yüksək qiymətləndirib: *“Yeni cəmiyyət quruculuğu şəraitində ictimai fəallıqlarını gücləndirərək sosial-mədəni həyatda yaxından iştirak etmələri Azərbaycan qadınlarının yüksək intellektual səviyyəsinin aydın təzahürüdür. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra da onlar sosial fəallıqları ilə seçilmiş, təhsil, səhiyyə, elm və mədəniyyət sahələrində çoxsaylı nailiyyətlər qazanmışlar. Qloballaşma dalğasının ənənəvi dəyərlər sistemini sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda xanımlarımız milliliklə müasirliyin vəhdətini daxili aləmlərinin ayrılmaz tərkib hissəsinə çevirərək nəsillərin varisliyi prinsipini qoruyur və ədəbi-ictimai, elmi-mədəni fikir salnaməmizdə iz qoymuş maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirirlər”.*

Prezident əmin olduğunu bildirib ki, qadınlar hər zaman olduğu kimi, bundan sonra da övladlarımızın milli-mənəvi dəyərlərə hörmət, Vətənə məhəbbət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək və Azərbaycanın inkişaf salnaməsinə parlaq səhifələr yazacaqlar.

## Müasir Azərbaycan qadınının simvolu

Azərbaycanda qadın hərəkatının vüsət almasında Birinci vitse-prezident xanım Mehriban Əliyevanın xidmətləri xüsusilə təqdirəlayiqdir. Mehriban Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti təkcə ölkəmizdə deyil, həm də dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında müstəsna rola malikdir. Mehriban Əliyeva sözün əsl mənasında Azərbaycan qadınının ləyaqət simvoludur. Onun istər humanitar, istər elm və təhsil, istərsə də digər sahələrdə həyata keçirdiyi böyükmiqyaslı tədbirlər qadınların cəmiyyətdə rolunun artmasına dəstək olmaqla yanaşı, həm də başqa ölkələrdə yaşayan qadınlar üçün əsl örnəkdir.

Ölkə ictimaiyyəti mütəmadi olaraq Mehriban Əliyevanı uşaqların, körpələrin, ahılların, köməyə, qayğıya ehtiyacı olanların yanında görür. Mehriban Əliyeva mütəmadi olaraq müalicə müəssisələrinə baş çəkərək müxtəlif xəstəliklərdən müalicə alan insanlarla görüşür. Onun göstərişi ilə Heydər Əliyev Fondu neçə-neçə vətəndaşın müalicəsini öz üzərinə götürüb. Bütün bunlar Mehriban Əliyevanın Azərbaycan qadınına məxsus yüksək keyfiyyətlərin daşıyıcısı olmasından xəbər verir.

Mehriban Əliyevanın timsalında Azərbaycan qadını həm də fəal siyasi xadimdir, ölkəmizi dünyada tanıdan vətənpərvər vətəndaşdır. Heydər Əliyev Fondunun xətti ilə Mehriban Əliyeva Azərbaycan həqiqətlərini və milli mədəniyyətimizin nümunələrini planetin müxtəlif guşələrinə çatdıra bilib. Onun UNESKO və ISESCO-nun xoşməramlı səfiri olması isə dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında müstəsna rola malikdir.

2017-ci ildən Mehriban Əliyevanın fəaliyyətində yeni missiya başlayıb. Həmin ilin fevral ayında Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi ölkəmizdə qadının dövlət idarəçiliyində iştirakına verilən yüksək dəyər kimi tarixə düşdü. Ötən 3 ilin reallıqları Mehriban Əliyevanın bu vəzifəni şərəflə daşıdığını, onun öz fəaliyyəti ilə Prezident İlham Əliyevin yürütdüyü siyasətə layiqli töhfələr verdiyini göstərir.

Bu gün müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdə layiqli mövqeyi firavanlığın təminatlarından biridir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## 10 mart Milli Teatr Günüdür

# Həyatı səhnədə yaşadan sənət

## Mart həm də bəşəriyyətdə teatrsevərlərin bayram ayıdır

Milli-mənəvi sərvətlərimizdən sayılan folklor nümunələrinin yaşının minilliklərlə ölçülməsi heç də təsadüfi deyil. Xalq özünün xeyir-şərlə bağlı adət-ənənələrini məhz mədəniyyət nümunələri sayılan sənətlərdə yaşadıb.



Bunlardan biri də teatr, yaxud səhnə sənətidir. Teatra getmək, baxmaq, hətta onun haqqında düşünmək belə olduqca maraqlıdır. Vətəni qədim Yunanıstan olsa da, yunan dilində “tamaşa yeri” mənasını verən teatr tezliklə bütün dünyaya yayılıb. Tamaşanı daha çox sevən yunanlar onu həm də “böyüklər üçün məktəb” adlandırırlar.

Beynəlxalq Teatr Günü ilə Azərbaycan Milli Teatr Gününün mart ayına təsadüf etməsi də maraqlıdır. Uzun illər teatrsevərlər 10 mart tarixini milli teatr günü kimi qeyd ediblər. Milli Teatr Gününün təsis edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin 1 mart 2013-cü il tarixdə imzaladığı sərəncam isə, sözün əsl mənasında, teatrsevərlərə bir töhfə olub. Çünki həmin ildən rəsmi olaraq ölkəmizdə 10 mart Milli Teatr Günü kimi qeyd edilir.

Bünövrəsi hələ meydan tamaşalarından qoyulan və bu günə qədər gəlib çıxan bir sıra folklor nümunələri (“Maraloyunu”, “Zopu-zopu”, yaxud “Kilimarası”, eləcə də Novruz bayramı şənliklərində göstərilən “Kosa-kosa”, “Qodu-qodu”, həmçinin digər tamaşa və məzhəkələr) var ki, onlar səhnə sənətinin rüşeymləri sayılıb.



Milli teatrımızın yaradıcıları sayılan H.Ərəblinski, C.Zeynalov, H.Sarabski, M.Əliyev, S.Ruhulla, M.Davıdova və başqalarının şərəfli xidmətləri haqqında hələ ötən əsrin 50-ci illərinin nəşrlərində kifayət qədər materiallar dərc edilib. Şərəfli və keşməkeşli tarix yaşamış Azərbaycan milli teatrı müxtəlif siyasi, ədəbi-bədii mərhələlərdən keçib.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Azər Paşa Nemətov deyir ki, M.F.Axundzadənin “Lənkəran xanının vəziri” və “Hacı Qara” komediyaları ilə pərdələrini geniş tamaşaçı üzünə açan Azərbaycan milli teatrı qarşısına qoyduğu məqsədə çatmaq üçün heç də hamar olmayan yollar keçib, siyasi cərəyanların bir-birini əvəz etməsindən meydana çıxan məşəqqətləri yaşayıb. Lakin xalqımızın mədəniyyət, o cümlədən milli teatr tarixindən görünür ki, tamaşaçı məhəbbəti, sənətə bağlılıq qarşıya çıxmış bütün çətinlikləri aradan qaldırmaqla həyat hadisələrini səhnəyə daha böyük sevgi və şövqlə gətirib.



Həmsöhbətim bildirdi ki, H.Zərdabinin təşəbbüsü, N.Vəzirov və Ə.Adıgözəlovun (Gorani) yaxından iştirakı ilə realnı məktəbin şagirdləri tərəfindən göstərilən ilk həvəskar tamaşalar milli teatrın yaranması üçün mühüm təkan olub. Qabaqcıl Azərbaycan ziyalıları, Qori Müəllimlər Seminariyasını bitirənlər Şuşa, Naxçıvan və başqa şəhərlərdə teatr tamaşaları hazırlayır, eyni zamanda aktyor kimi çıxış edirdilər: “Şuşada qabaqcıl müəllim və ziyalı qüvvələri Y.Məlik-Haqnəzərovun rəhbərliyi ilə yay tətilləri zamanı klubda və Xandəmirovun teatrında müntəzəm surətdə tamaşalar təşkil edir, M.F.Axundzadənin komediyalarını (“Xırs-quldurbasan”, “Müsyö Jordan və dərviş Məstəli şah”) oynayırdılar.



1890-cı illərdən başlayaraq N.Nərimanovun Azərbaycan teatrının ideyaca sağlam istiqamətdə, yəni milli zəmində inkişaf etməsində, səhnə realizmi tələblərinin həyata keçirilməsində böyük xidməti olmuşdur. O, teatra xalqın ictimai şüurunu yüksəltməyin və zamanın qabaqcıl ideyalarını yaymağın mühüm vasitələrindən biri kimi qiymət verir və bundan tribuna kimi istifadə edirdi. N.Nərimanov ziyalı gəncləri aktyor truppasına dəvət edir, eyni zamanda özü də bir çox tamaşalarda baş rolları oynayırdı.



Şərqdə ilk dəfə olaraq peşəkar teatrın Bakıda yaranması xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında, təbliğində, estetik zövqünün formalaşmasında, maarifləndirmənin sürətləndirilməsində mühüm vəzifələr yerinə yetirərək mütərəqqi ideyaların carçısına çevrilib.

Mədəniyyət tarixinin parlaq səhifələrini şərəflə yazan milli teatr dövlət müstəqilliyinin bərpasından sonra özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. İllərdən bəri baxımsızlıq üzündən öz simasını dəyişmiş, teatr binalarının bərpası ilə yanaşı, yaradıcı kollektivlərə diqqət və qayğı öz bəhrəsini tezliklə göstərdi. Yaradıcılıq şəraitinin daha da yaxşılaşdırılması yolunda dövlət tərəfindən müntəzəm şəkildə müxtəlif tədbirlər həyata keçirilir, yeni-yeni sənət əsərləri səhnəyə çıxarıldıqca sənətkarların yubileyləri qeyd edilir, onların ictimai həyatdakı nüfuzları getdikcə artırılır. Məhz Azərbaycan milli teatrına dövlət və xalq məhəbbətinin təzahürüdür ki, yaradıcı kollektivlərin beynəlxalq mədəni əlaqələri genişlənir. Bu isə Avropa və Şərqdə mədəniyyətimizin təbliğində mühüm vasitələrdən biridir. Respublikada fəaliyyət göstərən 27 dövlət, həmçinin bələdiyyə, uşaq və özəl teatrların səmərəli fəaliyyətini təmin etmək məqsədilə onlar hər cür qayğı ilə əhatə olunurlar.

Teatr Xadimləri İttifaqının nəzdində fəaliyyət göstərən studiyalar gənc səhnə sənəti mütəxəssislərinin peşəkarlığının artırılmasında mühüm rol oynayır: “Bilirsiniz, informasiya texnologiyalarının həyat və məişətimizə sürətlə daxil olması teatr aləminə də müəyyən təsirlərini göstərir. Bu, həm müsbət, həm də mənfi təsirlərdir. Yalnız onu deyə bilərik ki, cəmiyyətimiz yeniləşdikcə, zövqlər də zənginləşir, şüur inkişaf etdikcə, tələblər də dəyişir. Bu, teatr sənətində də belədir. Qələbə mənasını daşıyan “Zəfər” studiyasında hazırlanan əsərlər sırf vətənpərvərlik mövzularında olurlar. Onların qayəsi düşmən üzərində qələbə çalmaqdır. Hazırda Azərbaycan Teatr Xadimləri İttifaqının yerləşdiyi bina mərhum və klassik sənətkarlarımız Mustafa Mərdanovla Zəfər Nemətovun o zamanlar həm təşəbbüsləri, həm də maliyyə yardımları ilə tikilmişdir. Aktyorlar Evi isə Abbas Mirzə Şərifzadənin adını əbədiləşdirib. Burada “Mustafa Mərdanov səhnəsi” və “Zəfər studiyası”nın fəaliyyət göstərməsi də məhz ölməz sənətkarlarımızın böyük teatra məhəbbətlərinin ifadəsidir”.

Azərbaycan milli teatrının tarixi keçmişi və bugünkü vəziyyəti barədə söz açarkən ilk növbədə onların bəzilərinin erməni vandalizminin qurbanlarına çevrilməsini xatırlatmalıyıq. İrəvan, Şuşa, Ağdam, Füzuli dövlət dram teatrlarının kollektivləri ötən müddət ərzində qaçqınlıq-köçkünlük ağrılarını daşımaqla yanaşı, düşmənin mənfur, çirkin siyasətinin ifşasının bədii ifadəsini tapmaq üçün yaradıcı potensialından səmərəli istifadə edib.

Lakin müxtəlif yerlərdə, sadəcə, uyğunlaşdırılmış şəraitdə tamaşalar hazırlayan Füzuli Dövlət Dram Teatrı yenidən Horadiz şəhərinə qayıdıb və fəaliyyətini doğma yurd yerində bərpa edib. Ağdam, Şuşa, İrəvan dövlət dram teatrlarının öz fəaliyyətlərini bərpa etmələri, təbii ki, mədəniyyətimizə dövlət qayğısının təzahürüdür.

Bu bayramın mart ayında keçirilməsinin isə xüsusi əhəmiyyəti var. Çünki Novruz tədbirləri də folklor nümunələri sayılan meydan tamaşaları və məzhəkələrlə daha çox yaddaqalan olur.

Azərbaycan milli teatrının inkişafı bir sıra digər amillərdə də özünün təsdiqini tapıb. UNESKO-nun Beynəlxalq Teatr İnstitutunun konqresinin Bakıda keçirilməsi də məhz Azərbaycanın təkcə mədəniyyətinin deyil, həmçinin iqtisadiyyatının da bugünkü tərəqqisinin ifadəsidir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağəli MƏMMƏDOV (foto)***
***“Azərbaycan”***






# Gənclik






● Gələcəyə dəstək



# Monolit birlik və mütəşəkkil siyasi qüvvə

## Yeni Azərbaycan Partiyasının möhtəşəmliyi cəmiyyətin bütün sosial-ictimai maraqlarını ifadə etməsidir

**Azərbaycanda siyasi partiyaların yaradılması sovetlərin 70 illik hakimiyyətinin süqutundan, dövlət müstəqilliyinin bərpasından sonra hərəkata çevrilmişdir. Müxtəlif adlar, məram və məqsədlər altında hakimiyyətə iddialı görünən bəzi siyasi təşkilatlar qısa zamanda mübarizə meydanlarında ya məğlub oldular, ya da digərləri ilə birləşərək "başqa bayraq" altına keçib əriyib itdilər. Dövlət müstəqilliyinin bərpasının ilk illərində Ulu Öndər Heydər Əliyevin də rəhbərliyi ilə bir partiya yaradıldı.**

O zaman hakimiyyətə müxalif olan bu siyasi təşkilatın sıralarına daha çox üzv qəbul edilməsinin müxtəlif səbəbləri var idi. Onlardan ən birincisi bu partiyanın yaradıcısının ictimai-siyasi baxışları və nüfuzu, dövlətçilik qanunlarının bilicisi, qranit iradəsi, mübarizliyi ilə xalqın sevimlisinə çevrilməsi idi. Digər amilləri və səbəbləri sadalamağa ehtiyac duymasaq da, bir faktı unutmamalıyıq. O zamankı hakimiyyəti zəbt etmiş iqtidarın qısa zaman kəsiyində dövlət idarəçiliyindəki təcrübəsizliyini gördüyü üçün AXC-Müsavat cütlüyünün bəzi sıravi üzvləri də lideri Heydər Əliyev olan Yeni Azərbaycan Partiyasına üz tuturdular. Qısamüddətli hakimiyyəti dövründə həmin cütlüyün fəaliyyətsizliyi bu prosesi daha da gücləndirdi. Məhz bunun nəticəsində xalq hakimiyyətin Ümummilli Lider Heydər Əliyevin ideyalarını gerçəkləşdirmək yolunda siyasi mübarizə meydanında daha çox səs toplayan Yeni Azərbaycan Partiyasına verilməsini tələb etdi.

Digər siyasilərin və ictimaiyyətin nümayəndələrinin dəfələrlə qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi təşkilatları arasında daha çox nüfuz qazanıb. YAP-ın sədri kimi, Prezident İlham Əliyevin bu siyasi təşkilatın fəaliyyət istiqamətini düzgün müəyyənləşdirməsi onun nüfuzunu ildən-ilə artırmaqdadır. YAP-ın nüfuzunun artması həm də onun sıralarında bu təşkilatın yaradıcısı olan Ulu Öndər Heydər Əliyevin ideyalarının gerçəkləşməsi üçün var qüvvəsi ilə çalışması ilə bağlıdır.

Yeganə siyasi qurumdur ki, 1993-cü ildən hakimiyyətdə olan YAP-ın respublikamızın bütün bölgələrində, rayonlarda, hətta ən ucqar yaşayış məntəqələrində ilk təşkilatları fəaliyyət göstərir, dinindən və dilindən asılı olmayaraq, milyonlarla vətənpərvər azərbaycanlını bir ideya ətrafında birləşdirir.

Heç kimə sirr deyil ki, YAP Azərbaycanın son dərəcə ağır günlərində - ölkədə hərc-mərcliyin baş alıb getdiyi bir dövrdə yaradılıb. O vaxtlar respublikamızda bir sıra siyasi partiyalar fəaliyyət göstərsə də, aralarındakı daxili çəkişmələr imkan verməyib ki, ölkədəki ictimai-siyasi, hətta humanitar böhran aradan qaldırılsın. Odur ki, Azərbaycanın siyasi müstəqilliyi sual altında idi. Bunu görən, xalqının taleyinə laqeyd qala bilməyən nəinki ziyalılar, sadə xalq belə ölkəmizin işıqlı gələcəyi naminə, yeni çağırışlara cavab verə biləcək bir siyasi təşkilat yaratmaq təşəbbüsü ilə çıxış etdilər. Bu ideya onları, başda Ümummilli Lider Heydər Əliyev olmaqla, Yeni Azərbaycan Partiyasını yaratmağa sövq etdi. 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə təsis konfransı keçirildi və Yeni Azərbaycan Partiyasının Program və Nizamnaməsi qəbul edildi, Ümummilli Lider yekdilliklə partiyanın sədri seçildi. Beləliklə, müstəqil Azərbaycanın yeniliyə açıq, xalqın partiyası adlanan - Yeni Azərbaycan Partiyası yarandı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan YAP-ın ötən illərdəki inkişaf tarixi göstərdi ki, bu siyasi təşkilatın təməlini qoyanlar və yaradanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni yüksəlişinin istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar. Azərbaycanın siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyi odur ki, o, cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisidir. Çünki Azərbaycan xalqının istəkləri, cəmiyyətin sosial-iqtisadi sifarişləri YAP-ın strateji proqramında ana xətti təşkil edir.

Ölkədə ictimai-siyasi proseslərin kifayət qədər mürəkkəb və keşməkeşli axarda cərəyan etdiyi bir vaxtda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaranan YAP qısa müddətdə xalqımızın və müstəqil dövlətimizin gələcək taleyini müəyyənləşdirən və əsas siyasi qüvvəyə çevrilən təşkilat kimi tanındı. Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu və bu gün 700 mindən çox üzvü sıralarında birləşdirən YAP müstəqilliyimizin, demokratik, hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi və davamlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir.

Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı, müstəqilliyini möhkəmləndirdiyi Azərbaycanın hərtərəfli inkişafı Prezident İlham Əliyevin həmin siyasəti layiqincə davam etdirməsinin nəticəsidir.

Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının yaradılmasından ötən 27 illik tarix də göstərir ki, bu sırada addımlayan yaşından və vəzifəsindən asılı olmayaraq hər bir YAP üzvü vətənə, xalqa, dövlətə sədaqətli xidmətləri ilə daim seçiliblər. Bu təşkilatda həmin ideyaların gerçəkləşməsi yolunda aparılan mübarizədə fəal olan 32 min nəfərdən artıq üzv vardır ki, onlardan 12 min 347-si gənclərdən ibarətdir. Sıralarında 13 min 674 nəfər qadını birləşdirən YAP Yasamal rayon təşkilatının gənclərindən biri kimi qürur hissi keçirirəm. Çünki YAP Yasamal rayon Gənclər Birliyində həmin vətənpərvərlərlə eyni sıradayam. YAP Yasamal rayon gəncləri də Ümummilli Liderin ideyalarına daim sadiq olmaları ilə seçilirlər. Onlar bu gün Azərbaycan Prezidenti, YAP-ın sədri cənab İlham Əliyevin ətrafında sıx birlik nümayiş etdirirlər. Bu birliyin formalaşmasında, əlbəttə, YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədovun xidmətləri az olmayıb.

"Nə qədər ki, Azərbaycan var, mən də var olacam" deyən Ulu Öndərin qurduğu Azərbaycan daimidir, əbədidir. Bu sırada YAP-ın da daimi olacağına əminik!

***Əsmər NƏBİYEVA,***
***YAP Yasamal Rayon Təşkilatı Gənclər Birliyinin sədr müavini***

● Tribuna

# Könüllülərin əksəriyyəti tələbə-gənclərdir



**Azərbaycan Prezidenti İlham Əliyev dövlət-gənclik münasibətlərinə toxunarkən qeyd edib ki, istənilən sahədə oxuyan və yaxud işləyən gənclər çalışmalıdırlar ki, peşəkarlıqlarını artırsınlar, milli vətənpərvərlik ruhunda tərbiyə alsınlar: "Bu gün Azərbaycan gəncləri cəmiyyətin ən fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik...Yəni bizim gənclərimiz bu gün cəmiyyətdə çox fəal rol oynayırlar və əlbəttə ki, gələcəkdə siz ölkəmizi idarə edəcəksiniz. Ona görə bir daha demək istəyirəm ki, ilk növbədə, milli vətənpərvərlik yüksək səviyyədə olmalıdır. Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır…"**

Biz tələbə-gənclər dövlət başçısının bu fikirlərini dəstəkləyir, vətənə layiqli xidmət göstərməyə çalışırıq. Təhsil aldığım və ötən il yaradılmasının 100 illik yubileyi keçirilən Bakı Dövlət Universitetinin tələbələri də ölkəmizdə az qala artıq bütün xidmət sahələrini əhatə edən könüllülük fəaliyyətində yaxından iştirak edirlər. Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi bu sahədə BDU tələbə-gənclərinin daha da fəal olmasını zərurətə çevirib. Ötən il dekabrın 10-da Beynəlxalq Könüllülər Günü münasibətilə Azərbaycan tələbə-könüllülərinin keçirilən forumunda da məqsəd tələbələr arasında könüllülük hərəkatının inkişafına, onların ictimai həyatda fəallığının stimullaşdırılmasına dəstək göstərməkdən ibarət idi.

400-dən çox tələbə-könüllü və digər qonaqların iştirak etdiyi forumda bir daha ölkədə gənclər siyasətinə xüsusi diqqət yetirildiyi, tarixi qərarlar qəbul edildiyi bildirildi. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət gənclər siyasəti, bu istiqamətdə görülmüş işlər və əldə olunmuş nailiyyətlər bir daha təsdiqləyir ki, gənc nəslin tərbiyəsi diqqət mərkəzindədir. Son illər ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin təşkilində tələbə-könüllülərin fəaliyyəti də bunu təsdiqləyir.

Xatırladaq ki, reallaşdırılan çoxsaylı layihələr içərisində "Bir" Tələbə-Könüllü Proqramı mühüm yer tutur. Bu, BMT-nin İnkişaf Proqramının Dayanıqlı İnkişaf Məqsədlərini dəstəkləyən və könüllülüyü uğurla təbliğ edən ən böyük tələbə-könüllü platformasıdır.

Qeyd edək ki, "Bir" Tələbə-Könüllü Proqramı ölkəmizin inkişafında böyük rol oynayan tələbə-könüllülərlə işi sistemləşdirmək, müvafiq fəaliyyəti stimullaşdırmaq üçün yaradılan uzunmüddətli proqramdır. Hazırda 26 ali və 18 orta ixtisas təhsili müəssisələrini əhatə edən proqram 23000-dən artıq könüllünü sıralarında birləşdirir. Könüllülük fəaliyyətinin yaratdığı təcrübə və imkanlardan bəhrələnən, savadlı və hazırlıqlı, innovativ texnologiyalara dərindən yiyələnən, milli dəyərlərə sahib, qloballaşan dünyanın çağırışlarına hazır olan gənc nəslin yetişdirilməsi Azərbaycan təhsilinin başlıca hədəfidir.

***Günay BEHBUDOVA,***
***BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin tələbəsi***

# Sevinirik ki, dövlətimiz bizə etimad göstərir



**Bu gün ölkəmizdə gənclərə böyük diqqət, qayğı göstərilir, ümid bəslənilir. Belə münasibət bizi ruhlandırır və gəncliyin cəmiyyətin aparıcı qüvvəsi olduğuna inandırır. Gənclik daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Daim irəliyə baxır, qurub-yaratmaq arzusu ilə yaşayır. Gənclik gələcək deməkdir. Ancaq biz bilirik ki, sağlam, nurlu gələcəyimizi qurmaq üçün tariximizi də, bugünkü dövlət siyasətimizi də, dünyada baş verən prosesləri də yaxşı bilməliyik.**

Biz bugünün gəncləri olaraq üzərimizə düşən missiyanı yaxşı anlayırıq. Bilirik ki, son illər Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri gənclər siyasətidir. Ulu Öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edir.

Gənclərin potensialından ölkənin mənafeyi naminə istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakı məqsədilə Prezident İlham Əliyev hələ 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq edib. Bu sərəncamda gənclərə dövlət qayğısının artırılması öz əksini tapıb.

Gənclərin təhsil səviyyəsinin yüksəldilməsi respublikamızda ən aktual məsələlərdən biridir. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" çərçivəsində bu istiqamətdə məqsədyönlü işlər həyata keçirilib. Nəticədə gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra uğurlu işlər görülüb.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı da dünyada gedən prosesləri nəzərə alaraq, Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və dəyərləndirilməsini, onların yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edib.

Ötən il dekabrın 5-də Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyev gənclərə inamını bir daha vurğuladı. Dövlət başçısı dedi: "Bilikli, savadlı, vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı uğurunun təminatçısıdır. Gənclər biliklərlə yanaşı, vətənə bağlı olmalıdırlar, vətəni və dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar".

Gənc olaraq çox sevinirik ki, ölkəmiz, dövlətimiz bizə etimad göstərir. Bu gün gənclərimizin respublikamızda müxtəlif sahələrdə həyata keçirilən tədbirlərdə, görülən böyük işlərdə fəallıq göstərmələri, həmçinin Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunmaları onlara yüksək münasibətin, diqqət və qayğının öz səmərəsini verdiyini söyləməyə əsas verir. Ən böyük uğurlarımız isə irəlidədir.

***Elmir NƏBİYEV,***
***Azərbaycan Texniki Universitetinin magistri***

● Gənclik və idman

# Ən böyük uğurlarımız irəlidədir






**2019-cu ildə Azərbaycanda gənclər siyasəti sahəsində 143 tədbir keçirilib. Onlardan 124-ü yerli, 19-u isə beynəlxalq səviyyəli olub. Regionlarda nazirlik tərəfindən 129 kütləvi aksiya təşkil edilib.**

Həmçinin 206 gənc xarici ölkələrə ezam olunub, 1308 gənc isə Azərbaycana gəlib. Azərbaycan Gəncləri Günü münasibətilə ötən il fevralın 1-də Bakı Konqres Mərkəzində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilən gənclərin respublika toplantısında 3500-dək gənc iştirak edib. Həmin toplantıda 6 nəfərə "Gənclər üçün Prezident Mükafatı" təqdim olunub.

❖ ❖ ❖

48 ölkədən 109 gəncin iştirak etdiyi Dünya Azərbaycanlı Gənclərin II Konqresi, Türk Şurası Gənclər Platformasının Birinci Baş Assambleyası, Qoşulmama Hərəkatının Gənclər Sammiti, "Xəzər kuboku" VII Beynəlxalq turniri, "Nə, Harada, Nə zaman" XVII dünya çempionatı, breyn-rinq intellektual oyunu üzrə Prezident Kuboku uğrunda beynəlxalq turnir ölkəmizdə yüksək səviyyədə təşkil olunub. İyirmi ölkədən 70 gəncin iştirak etdiyi "Həmişə gənc ol!" şüarı altında "Youthvision" beynəlxalq mahnı müsabiqəsi tamaşaçılarda xoş təəssüratlar yaradıb. Eyni zamanda, İslam dünyasının gənc klassik musiqi ifaçılarının VIII Beynəlxalq müsabiqəsi, IX Beynəlxalq uşaq muğam müsabiqəsi, "Əlilliyi olan gənclərlə sosial iş üzrə innovativ texnologiyalar: problemlər və perspektivlər" adlı beynəlxalq konfrans və digər tədbirlər də müvəffəqiyyətlə təşkil olunub.

❖ ❖ ❖

Hazırda ölkədə 40 Gənclər Mərkəzi fəaliyyət göstərir. Onlardan 12-si Gənclər və İdman Nazirliyinin tabeliyindədir və "Gənclər evi" sosial xidmət müəssisəsi kimi rəsmi qeydiyyata alınıb. Digər 27-si isə müxtəlif hüquqi və fiziki şəxslər tərəfindən inşa edilib. Onların fəaliyyəti məxsus olduqları qurum tərəfindən tənzimlənir.

Yaxın zamanlarda Masallı və Goranboy rayon Gənclər Evi də nazirliyin tabeliyinə veriləcək.

***İ.ƏLİYEVA,***
***"Azərbaycan"***

● Tədbir

# Sumqayıtda "İnteraktiv düşüncə" layihəsinin II mərhələsi keçirilib

**Sumqayıtdakı Heydər Əliyev Mərkəzində şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilati dəstəyi ilə Azərbaycan Respublikasının Gənclər Fondunun XIII qrant müsabiqəsində qalib olan "İnteraktiv düşüncə" layihəsi bilik yarışının növbəti mərhələsi yeniyetmələr arasında icra olunub.**



Tədbirdə çıxış edən layihə rəhbəri Rüfət Bağırov ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan söz açıb. O bildirib ki, layihənin məqsədi Azərbaycan tarixinin, milli-mənəvi dəyərlərin gənclər arasında təbliği, intellektual, elmi fəaliyyətə həvəsləndirilmə, komanda ilə işləmə bacarığının inkişafı və asudə vaxtın səmərəli təşkil edilməsidir. Hər bir gənc ölkəmizin tarixini bilməli, ona bu istiqamətdə yönələn sualı cavablandırmalıdır.

Bilik yarışında şəhərin ümumorta və orta ixtisas təhsili müəssisələrini təmsil edən yeniyetmələrdən ibarət 10 komanda olmaqla, 60 iştirakçı öz bilik və bacarığını sınayıb. Gərgin və maraqlı şəraitdə keçən bilik yarışının sonunda I yerə 31 saylı tam orta məktəbin "Gryffindor", II yerə Texniki və Təbiət Elmləri Liseyinin "Zion", III yerə isə "La case de" komandası layiq görülüb.

Qaliblərə kubok, medal, hədiyyə, iştirakçılara isə sertifikatlar təqdim edilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

● Xəbər

# İlkin tibbi yardım hər kəs üçündür

**Azərbaycan Gənclər Fondunun təşkilatçılığı ilə keçirilən "İlkin tibbi yardım hər kəs üçündür" layihəsi başa çatıb.**



Azərbaycan Tibb Universitetinin mətbuat xidmətindən verilən məlumata görə, Gənclər Fondunun 13-cü qrant müsabiqəsinin qalibi olan bu layihədə Tibb Universiteti, Bakı Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Neft Sənayesi Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və digər ali təhsi ocaqlarından 208 tələbə iştirak edib.

Layihənin rəhbəri Cavid Mustafazadə bildirib ki, cəmiyyətin aparıcı təbəqəsi olan tələbələr arasında ilkin tibbi yardıma dair bilik və bacarıqların, onların bu sahədə təşəbbüslərinin artırılmasına nail olmaq, gənclər qrupunun müxtəlif situasiyalarda, təcili hallarda ölümün azaldılmasına dəstək göstərə bilməsinə yardımçı olmaq layihənin əsas məqsədlərindəndir.

İki gün ərzində layihə çərçivəsində gənclərə müxtəlif təcili vəziyyətlərdə ilkin tibbi yardımın göstərilməsi istiqamətində təlim keçirilib və lazımi qaydalar nümayiş etdirilib. Treninqlər beynəlxalq səviyyəli təlimçi Nabil Seyidov tərəfindən aparılıb. Təlimlərin səmərəliliyinin qiymətləndirilməsi üçün tələbələr testdən keçiblər. Test nəticəsində 70 faizdən yüksək nəticə göstərən iştirakçılara sertifikatlar verilib.

Layihəni uğurla başa vurmuş gənclərdən ibarət "İlkin tibbi yardım" komandasının formalaşdırılması və ölkəmizin evsahibliyi etdiyi beynəlxalq tədbirlərdə onların iştirakını təmin etmək nəzərdə tutulur. Ən yüksək nəticə göstərən 10 tələbə iki gün ərzində tam təkmilləşmiş praktiki təlimlər keçmək hüququnu qazanıb və onlar diplom və hədiyyələrlə təltif ediliblər.

Dünya olduğu kimi

# Zəriflərin mübarizəsi

**8 Mart - Beynəlxalq Qadınlar Günü... Hər il bu gün dünyanın bir çox ölkəsində zərif cinsin nümayəndələrinin bayramı kimi qeyd edilir. İlk baxışdan elə təsir bağışlayır ki, sanki bu bayram xanımlara çiçək və hədiyyə almaq üçün təsis edilib. Ancaq tarixə nəzər salanda bu günün romantik hadisələr nəticəsində yaranmadığını görürük. Əslində, 8 Martın kökündə qadının cəmiyyətdəki rolu və hüquqları uğrunda apardığı mübarizə dayanır.**




## "Çörək və gül"

1857-ci il martın 8-də Nyu York şəhərində tikiş və ayaqqabı fabrikinin qadın işçiləri nümayişə çıxırlar. Onlar 10 saatlıq iş günü, işıqlı və rahat iş yeri, kişilərlə eyni maaş tələb edirlər. O zaman qadınlar sutka ərzində 16 saat işləyir, bunun müqabilində isə qəpik-quruş alırdılar. Ancaq polis nümayişi dağıtmaq üçün işçilərə hücum edir və fabrikin qapılarını bağlayır. Fabrikdə yanğın başlayır. İşçilər fabrikin qarşısında qurulan barrikadalardan keçib qaça bilmirlər. Nəticədə çoxu qadın olmaqla 129 işçi yanaraq həyatını itirir. Beləliklə, qadınların haqqı uğrunda apardığı mübarizəyə qanla yekun vurulur. İşçilərin cənazə mərasiminə 100 mindən çox insan qatılır.

Bu hadisədən 51 il sonra, 1908-ci il martın 8-də Nyu York Sosial-Demokrat Qadın Təşkilatının çağırışı ilə 15 min qadın daha az iş saatı, kişilərlə bərabər əmək haqqı və səsvermə hüququ üçün nümayiş keçirir. Nümayişdə ilk dəfə olaraq analıq məzuniyyəti icazəsi də tələb olunur. Həmin qadınların şüarı "Çörək və gül" idi. Çörək həyat eşqini, qarın toxluğunu, gül isə daha firavan həyat tərzini ifadə edirdi...

Bir il sonra, 1909-cu ilin 28 fevralında Nyu Yorkda ilk qadınlar günü mərasimi baş tutur. Bu, Amerika Sosialist Partiyası tərəfindən qadın işçilərin 1908-ci ildəki tətilinin xatırlanması münasibətilə təşkil olunmuşdu.

1910-cu ildə Danimarkanın Kopenhagen şəhərində keçirilən 2-ci Beynəlxalq Sosializm Konfransında Almaniya Sosial Demokrat Partiyası liderlərindən olan Klara Setkin tikiş fabriki yanğınında ölən qadın işçilərin xatirəsinə ehtiram olaraq 8 martın "Dünya Qadınlar Günü" kimi qeyd olunmasını təklif edir və təklif qəbul olunur.

Amma Qadınlar günü ilk dəfə Avstriya, Danimarka, Almaniya və İsveçrədə 1911-ci il martın 19-da qeyd edilir. O zaman milyondan artıq kişi və qadın nümayişlərə qoşulur.

## "Təsəvvür etmirdik ki, bu Qadınlar günü inqilabın inaqurasiyası ola bilər"

1914-cü il martın 8-də Rusiyada Beynəlxalq Qadınlar Günü baş tutur. Həmin günün mərasimi qadınların 1918-ci ilə kimi qazana bilmədikləri seçki hüququna həsr olunur. Eyni tarixdə Londonda da qadınların seçki hüququna dəstək məqsədilə Trafalqar meydanına doğru yürüş baş tutur.

1917-ci il martın 8-də Sankt-Peterburqda Qadınlar Gününün qeyd olunması ilə bağlı nümayişlər Fevral İnqilabının əsasını qoyur. Həmin gün qadınlar "Çörək və sülh" şüarı ilə küçələrə çıxıb, I Dünya müharibəsinin, Rusiyadakı ərzaq qıtlığının və çarizmin bitməsini tələb edirlər. Lev Trotski yazırdı: "Beynəlxalq Qadınlar Günü idi və üfüqdə yeni mitinqlər, aksiyalar görünürdü. Amma biz təsəvvür etmirdik ki, bu Qadınlar günü inqilabın inaqurasiyası ola bilər. İnqilabi aksiyalar öncədən görünürdü, amma tarixsiz şəkildə. Lakin səhər, əks göstərişlərə baxmayaraq, tekstil işçiləri bir neçə fabrikdə işi tərk etdilər və tətilə dəstək verilməsini xahiş etmək üçün öz nümayəndələrini göndərdilər... Bu, kütləvi tətilə apardı... hamı küçəyə axışdı".

Bundan 4 gün sonra çar II Nikolay devrilir. Müvəqqəti hökumət qadınlara səsvermə hüququ verir.

Oktyabr inqilabından sonra bolşevik Aleksandra Kollontay və Vladimir Lenin 8 martı SSRİ-də rəsmi bayram elan edirlər. 8 may 1965-ci il fərmanıyla SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən Beynəlxalq Qadınlar Günü qeyri-iş günü kimi təqvimə düşür.

1975-ci il dünya qadınları üçün xüsusi əhəmiyyət daşıyır. Həmin ilin "Beynəlxalq qadın ili" elan edilməsindən sonra Birləşmiş Millətlər Təşkilatında 8 mart ilk dəfə olaraq Beynəlxalq Qadınlar Günü kimi keçirilir. İki il sonra 1977-ci ildə isə BMT-nin ümumi qurultayında 8 Mart qadın hüquqları və beynəlxalq sülh günü olaraq qəbul edilir.

## Qadınlar günü Azərbaycanda

8 Mart Sovet İttifaqından qalma bayram olsa da, müstəqillik qazanmış keçmiş SSRİ respublikalarının təqvimindən bugünə qədər silinməyib.

Xatırladaq ki, Azərbaycan müsəlman dünyasında kişilərlə bərabər qadınlara seçkilərdə iştirak etmək - seçmək və seçilmək hüququ verən ilk ölkə olub. Azərbaycan Xalq Cümhuriyyəti elan olunandan sonra 1918-ci il dekabrın 8-də işə başlayan Azərbaycan parlamentinə seçkilərdə qadınlar iştirak edib. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ ilk dəfə Azərbaycanda verilmiş olur.

1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tam hüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub.

8 Mart - Beynəlxalq Qadınlar Günü hər il Azərbaycanda dövlət səviyyəsində qeyd olunur. Ölkə Prezidenti bu gün münasibətilə Azərbaycan qadınlarını təbrik edir, öz peşələrində uğur qazanan xanımları fəxri ad və mükafatlarla dəyərləndirir.



# Ana xaqanlığı

**Matriarxat - qadının cəmiyyətdə mühüm rol oynadığı dövr 40 min il bundan əvvəl başlayıb, e.ə. IV minilliyin sonlarınadək (təqribən 37 min il) mövcud olub.**

Arxeoloji araşdırmalar nəticəsində əldə olunan məlumata görə, Alt Paleolit dövründə insanların ilk məşğuliyyətləri ovçuluq və yığıcılıq idi. Mağarada yığıcılıqla məşğul olan qadınlar vaxtaşırı ova da gedirdilər. Sonrakı dövrdə oturaq həyat insanları köçərilikdən ayırıb bir ərazidə məskunlaşmağa sövq etdi. Həyat tərzində ovçuluğun yerini əkinçilik aldı və bu, daha çox qadınların öhdəsinə düşən iş idi. Dənli bitkilərlə tanışlıq, əkin, buğdanın yığılaraq üyüdülməsi və bu ənənənin yeni nəslə öyrədilməsi qadınların sosial həyatda yükünü artırmaqla yanaşı, vəzifəsini də üst səviyyəyə qaldırırdı. Artıq kişi ilə müqayisədə qadın üstünlük qazanmışdı.

Üst Paleolit dövründə ulu icma nəsli-qəbilə icması ilə əvəz olundu. Nəsli-qəbilə icmasının əsasını qan qohumluğu ilə bağlı olan insanların birliyi təşkil edirdi. İnsanlar ana xətti ilə qohumluq əsasında birləşmişdilər. Bu dövrdə kişi nəsli davam etdirməkdə üzərinə düşən rolundan xəbərsiz idi. Baxmayaraq ki, ata uşaqların ona oxşarlığını görür, amma bunun səbəbini dərk edə bilmirdi, onların yalnız ananın övladı olduğunu anlayırdı. Digər tərəfdən uşaqlar da özlərini ananın övladları hesab edirdilər. Beləcə soy kişi tərəfindən deyil, qadın tərəfindən tanınar, kişilərə isə sonsuz bir varlıq kimi baxılardı. Kişi evləndikdən sonra qadının tayfası arasında ömür sürərdi. Qadın kişinin yalnız qol gücündən bəhrələnərdi. Qəbilənin həyatında qadın mühüm rol oynayardı. Uşaqların qayğısına qalmaq, giləmeyvə və yabanı bitkilər toplamaq, odu qoruyub saxlamaq, yemək hazırlamaq və s. qadınların işi idi. Qəbilə icmasında insanlar ana xətti ilə birləşdiyinə görə də bu dövr ana xaqanlığı (matriarxat) dövrü adlanır.

Amma əkinçiliyin inkişafı nəticəsində xışa keçid və heyvandarlıq tədricən qadının sosial gücünü kişiyə ötürməsinə səbəb oldu. Tamamilə oturaq həyata keçid isə qadınların sosial güclərinin itirilməsinə gətirib çıxardı.

Çox keçmir ki, kişi də uşaqların dünyaya gəlməsindəki rolunu anlayaraq özünü onların əsas sahibi kimi tanıyır. Bu vaxtdan etibarən qadını tamamilə özünə tabe edir, ailənin başçılığını öz ixtiyarına alır. Beləcə, ağır zəhmət və fiziki güc tələb edən xış əkinçiliyinin yaranması, köçəri (yaylaq-qışlaq) maldarlığın meydana gəlməsi, həmçinin tayfalararası toqquşmaların başlanması ictimai həyatda kişilərin nüfuzunun artmasına təsir edir. Nəticədə icma həyatında kişilərin mühüm rol oynadığı ata xaqanlığı (patriarxat) dövrü başlayır.

# İlk peşəkar qadınlar

**Tarix və təcrübə göstərir ki, asan və ya çətin olmasına baxmayaraq, qadın da kişilərin bacardığı işi görür - döyüşçülükdən kosmonavtikayadək. Tarix boyu dünyada mövcud olmuş peşələrdəki "ilk" qadınları təqdim edirik.**



**İlk qadın astronavt** - Valentina Nikolayeva-Tereşkova ilk qadın astronavt kimi adını tarixə yazıb. 1963-cü il iyunun 19-da "Vostok 6 " ilə 71 saat ərzində dünyanın ətrafında 48 dəfə dövr edib.

**İlk qadın həkim** - Elizabet Blakvell əslən İngiltərədəndir, daha sonra ABŞ-a köçüb. Uşaqlıq dostu xərçəngdən öləndən sonra həkim olmaq qərarı verib. Rəfiqəsinin ölmədən öncə Elizabetə dediyi "bir qadın həkim olsaydı, dərdimi ona daha rahat deyə bilərdim" sözləri onun yaddaşında ömürlük qalmışdı. O, Filadelfiya və Nyu Yorkdakı tibb məktəblərinə müraciət etdi, lakin qız olduğu üçün qəbul olunmadı. Elizabet yenə var gücü ilə mübarizə apardı və sonda məktəbə qəbul olundu. Bitirdikdən sonra məhz qadın olduğuna görə heç bir xəstəxanada işə götürmədilər. O da məcbur olub öz tibb mərkəzini açdı. İlk xəstələri də elə xanımlar oldu.

**İlk qadın memar** - Peşəsini tam və əsaslı olaraq yerinə yetirən ilk qadın memar Ethel Meri Çarlz sayılır. Böyük layihələrə imza atan Meri 1898-ci ildə imtahandan uğurla keçərək "İngiltərənin Memarlar Otağı"na üzv seçilib.

**İlk qadın vəkil** - "Qadın müdafiə olunandır, qadın zəifdir və qadın qayğıya ehtiyac duyandır"- Arabella bu sözlərdən bezdiyini deyirdi. O, müdafiə olunan yox, müdafiə edən olmaq istəyirdi. Sadə Amerika vətəndaşı Arabella Mansfayld arzularını və istəklərini reallaşdırdı. Bir vəkilin bürosunda şagirdlik etdi, təhsilini tamamladı. 1869-cu ilin iyun ayında ilk məhkəməsinə çıxdı və qazandı.

**İlk qadın səfir** - Aleksandra Qollandas adlı rusdur. Aristokrat ailənin övladı olan bu xanım 1915-ci ildə öz ailəsi və aid olduğu təbəqə ilə olan bağlarını qopardı və bolşeviklərə qatıldı. 1922-ci ilin payızında Sovet İttifaqının Norveçdəki səfiri təyin edildi. O tarixdə SSRİ hələ Norveç tərəfindən rəsmən tanınmamışdı. Ona görə ilk xanım səfir Norveçin SSRİ-ni rəsmi olaraq tanınmasından, yəni 1924-cü ilin 15 fevralından sonra vəzifəsinin icrasına başladı.

**İlk qadın hakim** - Ester Morris amerikalıdır. Hüquq təhsili alsa da, qadınların bu cür işlərdə işləməsi bir növ qəbul edilmirdi. 1870-ci ildə ABŞ-ın Vyominq əyalətindəki şəhərlərin birində məhkəmə sədri təyin olundu. Məhkəmə sədri olduğu dövrdə 70 iddiaya baxdı. Şəhərdə həmişə onun ədalətli olmasından danışırdılar.

**İlk qadın bələdiyyə sədri** - Susanna Medora Salter 1887-ci ildə 27 yaşında Kanzas əyalətinin Arqonuya şəhərinin bələdiyyə sədri seçilib. Seçicilərin üçdə ikisinin səsini qazanan Susannanın namizədliyi özünün xəbəri olmadan üzv olduğu bir dərnək tərəfindən irəli sürülmüşdü. O, namizəd olduğunu səs vermək üçün məntəqəyə getdiyi zaman öyrənib.

**İlk qadın baş nazir** - Bu, Şirimavo Bandaranaykedir. O, 1960-cı ildə öz hökumətini qurdu, Şri-Lanka hökumətinin ilk baş naziri oldu. Ondan sonra qadın baş nazirlərin sıralanması isə bu cürdür: Hindistanda 1966-cı ildə İndira Qandi, İsraildə 1969-cu ildə Elizabet Domiteyn, İngiltərədə 1979-cu ildə Marqaret Tetçer öz ölkələrinin baş naziri seçildilər.

**İlk qadın pilot** - Elis Roşe olub. 1909-cu ildə təkbaşına uçuş həyata keçirən Elis birillik təhsildən sonra ilk professional qadın pilot kimi adını tarixə yazdırdı.

**İlk qadın polis** - Alisa Stebbin 1910-cu ildə Los-Ancelesdə fəaliyyətə başlasa da, cəmiyyət onu qəbul etmirdi. Polislərə verilən gediş kartı onu çətin vəziyyətə salırdı. Tez-tez ictimai nəqliyyatda mübahisə etməli olurdu. Alisa nə vaxt sürücüyə kartını göstərsə, onu ərinin kartını istifadə etməkdə suçlayırdılar. Stebbin bunu komandirinə deyəndən kartına "kart qadın polisi üçün verilir" yazdılar.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

# Sağlıq olsun

# Ana möcüzəsi

## Həkim məsləhəti

**Ana südü uşaq üçün ideal qidadır və nadir tərkibinə görə "təbiət fenomeni" kimi qiymətləndirilir.**



Pediatr-neonatoloq, uzman həkim Altay Abdullaoğlu bildirir ki, heç bir əvəzedici ana südünün yerini tuta bilməz. Ona görə körpələrin ilk 6 ayda su da daxil olmaqla ana südündən başqa heç bir qida maddəsinə ehtiyacı yoxdur. İlk 3-5 gün ərzində ifraz olunan ağız südünün (kolostrum) isə körpələrin gələcək inkişafında xüsusi rolu var. Çox vaxt analar bu südü lazımsız bilib, körpəni ondan məhrum edir. Amma bu qətiyyən düzgün deyil! Bu süd ən çox proteinlər və immunqlobulinlə zəngin olub, körpəni zərərli mikroorqanizimlərdən müdafiə edir. Ana südünü uşağın ilk peyvəndi adlandırırlar.

Bu südün ana üçün də çoxlu faydası var. Ən başlıcası süd vəzi, yumurtalıq, uşaqlıq xərçəngi riski, osteoparoz, diabet kimi xəstəliklərə tutulma ehtimalı azalır.

## Bu süd uşağın beyin inkişafına əvəzsiz fayda verir

Hazırda alimlər ana südünün tərkibində 400 komponent aşkar ediblər. Yeni doğulmuş körpənin mədə-bağırsaq sistemi qidanı hələ ki, mükəmməl şəkildə həzm edə bilmədiyi üçün ana südünün tərkibindəki fermentlər uşaq orqanizminə yağları, karbohidratları həzm etməyə kömək edir.

Südün əsas tərkib hissəsini su (80 faizdən artıq) təşkil edir. Lakin bu, adi deyil, bioloji aktiv sudur. Uşağın orqanizmi tərəfindən tam mənimsənilir və onun suya olan ehtiyacını tam ödəyir. Hətta isti yay günlərində tez-tez əmizdirilən körpə susuzluqdan əziyyət çəkmir.

Ana südünün növbəti vacib komponenti karbohidratlardır. Ana südündəki karbohidratların əsas hissəsini uşağın inkişafında böyük rol oynayan laktoza təşkil edir. Məhz laktoza kalsiumun və dəmirin mənimsənilməsinə kömək edir. Laktoza uşağın mərkəzi sinir sisteminin inkişafı üçün də çox vacibdir. Uşağın bağırsaqlarında lakto və bifidobakteriyaların əmələ gəlməsini stimullaşdırır ki, bu da bağırsaqlara düşən zərərli mikrobların inkişafına mane olur.

Ana südünün tərkibində əvəzsiz yağ turşuları, zülallar var ki, onlar uşağın inkişafı üçün (xüsusilə beyinin və bağırsaqların) olduqca vacibdir.

Qidalı maddələrdən əlavə, ana südündə uşaq orqanizmi üçün vacib olan bütün vitamin və mikroelementlər var.

Bu möcüzəvi qida həm də qoruyucu funksiya daşıyır. O, uşağın orqanizmini zərərli mikrob və infeksiyalardan qoruyur, immun sisteminin inkişafına kömək edir. Ana südü müxtəlif immun faktorlarla zəngindir: lizosim - təbii "antibiotik"; makrofaqlar - mikrobları məhv edən xüsusi hüceyrələr; ananın həyatı boyu keçirdiyi xəstəliklərə qarşı anticisimlər.

## Övladınız allergiya, ateroskleroz, şəkərli diabet, bədxassəli şişlərdən uzaq olacaq

Müasir araşdırmalar sübut edir ki, ana südü ilə təbii qidalandırılma nəinki körpənin normal inkişafını təmin edir, hətta müxtəlf xəstəliklərin ən yaxşı profilaktik üsuludur. Belə ki, məhz ana südü ilə qidalandırılma piylənmə, allergiyalar, ateroskleroz, müxtəlif mədə-bağırsaq sistemi xəstəlikləri, şəkərli diabet, bədxassəli şişlər, stomatoloji problemlər və s. xəstəliklərin uzun illər inkişaf etməsinin qarşısını alır. Həmçinin hipertoniya və ürəyin işemik xəstəliyi riskini azaldır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Bilirik?

- Qadınların ürəyinin ölçüsü daha kiçikdir və bunun nəticəsi olaraq daha tez-tez döyünür. Əgər kişilərin ürəyi dəqiqədə 72 dəfə döyünürsə, qadınlarda bu rəqəm 90-a çatır. Ürəyin sol mədəciyinin divarları nisbətən nazik və elastik olduğu üçün qadınlar kişilərlə müqayisədə yüksək qan təzyiqinə daha çox dözümlüdürlər;
- Qadınlarda saç tüklərinin kökləri kişilərə nisbətən 2 mm dərinlikdə yerləşir;
- Kişilərdə beyinin çəkisi 14 faiz artıqdır. Digər tərəfdən, qadınlarda beyin yarımkürələrini birləşdirən sinirlər ikiqat sıx yerləşmişdir. Buna görə də qadınlarda düşünmə prosesi daha tez və cəld baş verir;
- Qadınların orqanizminin maye ilə təminatı 50-60 faizdirsə, kişilərdə 60-70 faiz olur; Kişilərin bədənində 4,5 litr qan dövr edir, qadınlarda isə cəmi 3,6 litr;
- İnsult və infarkt kimi xəstəliklər əksər hallarda kişilərin həyatında baş verir, çünki kişilərin qan tərkibi qadınlara nisbətən daha qatıdır. Laborator araşdırmalara əsasən kişilərin hər qan damcısında qadınlarla müqayisədə 1 milyondan çox qan hüceyrəsi var;
- Kişilər qadınlarla müqayisədə daha aqressiv olur. Bu hal onunla izah edilir ki, kişilərdə testosteron hormonu 10 dəfə artıq ifraz olunur.

## Yaşam:

# X, yoxsa Y: hansı daha uzunömürlüdür?

**Qadınların kişilərlə müqayisədə daha uzun ömür sürməsi onların həyata daha sağlam yanaşması deyil, orqanizmlərində qocalmanı ləngidən əlavə gen surətinin olması ilə əlaqəlidir. Bu barədə "Aging Cell" jurnalında dərc olunan araşdırmanın nəticələrində bildirilir.**



Ümumdünya Səhiyyə Təşkilatının statistikasına görə, hazırda orta insan ömrü 71 yaş təşkil edir. Ən yoxsul Afrika dövlətlərindən tutmuş ən zəngin Avropa şəhərlərinə kimi bütün dünya ölkələrində qadınların orta ömrü kişilərdən daha yüksəkdir.

Maraqlıdır ki, antropoloqlar bu tendensiyanın ibtidai icma quruluşunda qalmış xalqlar arasında da müşahidə olunduğunu müəyyən edib. Ənənəvi olaraq, bu, kişilərin riskə, kökəlməyə, qeyri-sağlam həyat tərzinə, o cümlədən alkoqol, tütün və narkotik vasitələrə meyilli olması ilə əlaqələndirilirdi. Ancaq Kaliforniya Universitetinin alimi Dena Dubal və onun həmkarları kişi və qadın ömrü arasındakı bu fərqin təkcə sosial deyil, eyni zamanda genetik aspektlərinin olduğunu ortaya çıxarıb.

Tədqiqatçılar uzun müddət DNT-ləri modifikasiya olunmuş dörd qeyri-adi siçan qrupu üzərində müşahidələr aparıb. Alimlər beyin və digər orqanların işində, həmçinin cinsi xromosomların funksiyası və strukturu baxımından kişi və qadınlar arasında bir çox fərqlərin olduğundan şübhələnib.

Məsələ ondadır ki, Y - kişi xromosomu, demək olar ki, həyati əhəmiyyətli genlərdən məhrumdur. Bir neçə kritik əhəmiyyətli (məsələn, rüşeymin inkişaf proqramının işə salınması üçün) DNT sahəsini köçürdükdən sonra onları genomdan kənarlaşdırmaq olar.

Qadın - X xromosomu isə həm zərif, həm də güclü cins üçün həyati əhəmiyyətlidir və onların genində yaranan pozuntu adətən fatal sonluqla (ölümlə) nəticələnir. Dubal və onun komandası belə bir nəticəyə gəlib ki, qadınların kişilərlə müqayisədə uzunömürlülüyü məhz X xromosomu ilə əlaqəli ola bilər.

## Şəfalı bitkilər

# Bu da təbiətin qadınlara ərməğanı



**Edinburq Universitetinin ekspertləri insanın cinsindən asılı olaraq meyvə-tərəvəzin ona müxtəlif cür təsir etdiyini aydınlaşdırıblar.**

Məlum olub ki, qadın orqanizmi üçün ən faydalı meyvə avakadodur. Onun tərkibində B2 və dəmirin kompleks şəkildə olması qadınlarda qan dövriyyəsini optimallaşdırmağa imkan verir.

Bundan başqa, tərkibindəki E vitamini qadınların hüceyrələrini yaş dəyişkənliyindən və viruslardan effektiv şəkildə qoruyur. Avakado xolesterinin miqdarının azalmasına, ürəyin stabil fəaliyyətinə və piy qatlarının əriməsinə də şərait yaradır. Meyvənin tərkibindəki antioksidantlar xərçəng xəstəliyinin yaranmasına, hormonal problemlərə qarşı da müsbət təsir göstərir.

## Sağlam həyat

# Qocaman qadın liderin sağlıq sirri

**İllərə meydan oxuyan, sağlamlığına xüsusi diqqət yetirən İngiltərə Kraliçası II Yelizabeta hərəkətləri və duruşu ilə hər zaman bütün dünyanın diqqət mərkəzində olub. Kraliça II Yelizabeta ildə saysız iclaslarda iştirak edir, ciddi hökumət qərarları verir. Bəs 93 yaşlı kraliça bu cür enerjili, sağlam olmağı necə bacarır?**



Həkimi II Yelizabetanın bəzi sağlıq sirləri barədə məlumat verib.

O bildirib ki, kraliça səhər buğda və qarğıdalı yarması yeyir. Hərdən yeməyinə makadamiya fıstığı və qaysı qurusu əlavə edir. Səhər yeməyini saat 9-da təkbaşına yeyir. Kraliça kartof kimi nişastalı qidalardan uzaqdır. Nahar yeməyində ispanaqlı balığa üstünlük verir. Axşam yeməklərində də həmçinin nahardakı qidalardan yeyir.

Kraliça Yelizabeta şokoladın vurğunudur. Ancaq şokoladı axşam yeməyindən sonra deyil, günorta yeməyindən sonra 3-cü çay saatında yeyir.

Onun sevdiyi digər şirniyyat mürəbbə və pudinqlərdir, xüsusilə bəyaz şaftalı pudinqi...

II Yelizabetanın həkimi qeyd edib ki, düzgün həyat tərzi yaşayırsınızsa, xəstəliklərin 80 faizində həkimə ehtiyacınız olmaz. Əgər sağlamsınızsa, orqanizminizdə ortaya çıxan problemlərin çoxunu həll edə bilərsiniz. Soyuqdəymə, yüngül iltihablanma, yara və hətta qırıqlarla da mübarizə aparmaq olar. Əsas sağlam bədənə sahib olmaqdır, psixoloji və fiziki dayanıqlıq lazımdır.

Həkim uzun ömür yaşamaq istəyənlər üçün bəzi detalları açıqlayıb:

- İçdiyiniz şirin suları alma, zəncəfil və kərəviz suları ilə dəyişdirin.
- Hər gün 6-8 stəkan su için.
- Səhərlər yüngül, lakin yumurta, badam və süzmə pendir kimi proteinlə zəngin qidalar qəbul edin.
- Günorta yeməyi gün ərzində yeyə biləcəyiniz ən kalorili yemək ola bilər. Hətta çox da şirin olmayan şirniyyat da qəbul edə bilərsiniz.
- Axşam yeməyiniz yüngül olmalıdır. Yaxşı olardı ki, axşam saat 19-dan 20-yə kimi yeməyinizi bitirəsiniz.
- Ədviyyatlı, ağır və şirin qidalardan uzaq durun. Onlar gec həzm edildiyinə görə yuxunuza mane olacaq.

Düzgün duruş sağlamlığın və gözəlliyin təməlidir. Belinizi dik tutmanıza kömək edəcək 1-2 məsləhət:

- Başınızı dik tutun və kiminsə sizi yuxarı dartdığını düşünün;
- Çiyinlərinizi arxaya çəkin;
- Boyun və çiyin əzələlərinizin dartıldığını hiss edənə qədər çənənizi qaldırın.




## İlin əziz günləri

# Yel çərşənbəsi

**Qışın dövranı bitməkdədir, qar əriyir, suyun buzu sınır, torpağın donu açılır, hərarət yüksəlir. Əsən külək, yağan yağış torpağa can verir. Belə bir vaxtda Boz ayın dörd çərşənbəsindən üçüncüsü - Yel çərşənbəsi qeyd olunur. Bu çərşənbəyə xalq arasında "Külək oyadan", "Yelli çərşənbə", "Küləkli çərşənbə" də deyilir.**



Əski etiqadlarda Yel Tanrı, yaxud dünyanı idarə edən tərəfindən göndərilən bir qüvvə hesab edilib. O, insanların dadına yetir, köməyinə çatır, onları əzizləyir, qəzəblənəndə isə cəzalandırır.

Tədqiqatçıların fikirlərinə görə, müqəddəs kitablarda da Yel fövqəladə varlıq hesab edilir. "İncil"də və "Zəbur"da Yel allahı vəsf olunur. "Tövrat"da isə dörd növ Yel ilahəsinin hər birinin özünəməxsus xüsusiyyətlərindən bəhs edilir. Yelin Yaradan tərəfindən göndərildiyi "Qurani-Kərim"də bildirilir.

Mərhum folklorşünas alim Azad Nəbiyev araşdırmalarında zərdüştilərin də küləyi müqəddəs saydıqlarını, onu Tanrı hesab etdiklərini qeyd edib. "Avesta"da deyilir: "Yelin gücü qüdrətli Hörmüzün gücüdür... Yel Hörmüzdən güc alıb dünyaya ayaq açmışdır". Tədqiqatçı Məmməd Adilov isə Yelin "baba", "allah" hesab edilməsi tarixini qədim yunanlarla bağlayıb. Belə ki, yunan mifologiyasında tənha bir adada yaşayan Eol bütün küləklərin mənşəyi hesab edilir. O, dörd oğlunu mağarada saxlayır. Oğlanlarını növbə ilə dünyanı dolaşmağa göndərir. Bu səbəbdən Yer üzündə dörd cür külək əsir. Yunanların başqa bir mifik düşüncəsində isə Yel külək tanrısı sayılır.

İnanclara görə, çərşənbə axşamları Tanrı ancaq xoş sözlər eşitməlidir. Buna görə də Yel çərşənbəsində yalnız ürəkaçan sözlər söylənilməlidir.

Azərbaycan ədəbiyyatı Yel tanrısı ilə bağlı əfsanə, rəvayət, nəğmə, mif, inanc, məsəl və digər folklor nümunələri ilə zəngindir. Ümumiyyətlə, ulularımız yalnız Novruz şənliklərində deyil, ilin fərqli dövrlərində də Su, Od, Yel və Torpaq tanrısına ehtiyac duyduqları vaxtlarda mərasim və ayinlər təşkil ediblər. Elə insanların illik ruzilərini topladıqları taxıl döyülən zaman keçirdikləri Yel baba mərasiminin də tədqiqatçılar Novruz şənlikləri ilə bağlı olduğu qənaətindədirlər. Bildirilir ki, bu mərasim Yel çərşənbəsindəki Yel tanrısına etiqadla əlaqədardır. Deyilənə görə, Yel baba ilə Əkinçi baba qardaş olublar. Birlikdə tarlanı şumlayıb əkərmişlər. Sonrakı müddətdə Əkinçi baba məhsula su verər, ot-alafdan təmizləyib becərər, yetişəndə biçib xırmana gətirərmiş. Yel babanın işi isə arpa-buğda dənini küləşdən, samandan ayırmaq imiş. O, xırmanda başqalarının da taxılını sovurub əvəzində pay alarmış. Bir gün insanlar arpa-buğdanı xırmanda döyüb Yel babanı gözləyirlər ki, gəlib sovursun. Amma o, gəlmir. İnsanların səbri tükənir. Taxılı özləri sovuraraq oxuyurlar:

*Yel baba amana gəl,*
*Dolanıb xırmana gəl.*
*Bir bəhanən yoxdursa,*
*Xəlbirə, samana gəl.*

*Ay Yel baba, Yel baba,*
*Saman sənin, dən mənim.*

*Ləçəyi mindər-mindər,*
*Yönünü bizə döndər.*
*Yönünü döndərmirsən,*
*Mehini bizə göndər.*
*Ay Yel baba, Yel baba,*
*Saman sənin, dən mənim.*

Bu vaxt xırmana yetişən Yel baba söylənilənləri eşidir. Onun inciyib getdiyini görən insanlar peşman olurlar. Və Yel babanın ardınca qaçır, onu səsləyərək oxuyurlar:

*Ay Yel baba, Yel baba,*
*Qurban sənə gəl, baba.*
*Taxılımız yerdə qaldı,*
*Yaxamız əldə qaldı,*
*Yelli babam, yel babam,*
*Telli babam, tel babam,*
*Güllü babam, gül babam,*
*Dərdimi gəl bil, babam.*
*Gəl babam, ay gəl, babam.*
*Elim, günüm batdı gəl,*
*Çərpələngim yatdı, gəl.*
*Təknədə qaldı aşım,*
*Yatdı dəyirman daşım.*

İnsanların sevgi və nəvazişlə söylədikləri bu nəğmə Yel babanın xoşuna gəlir. Geri dönür, xırmandakı buğdanı, arpanı sovurub samandan ayırır.

İnanca görə, Yel baba xırmana gəlməmiş oradan dən götürməzlər. Atalar deyib: "Yel aparan yelinki, yerdə qalan mənimki".

Azərbaycan mifologiyasında yel xeyirxahdır. O, yol göstərir, bələdçilik edir. Qalın meşələrdə azıb mənzilini tapmaqda çətinlik çəkənlərin qarşısına çıxan Yel baba onlara bir yumaq verir. Sonra yumağı yerə atıb diyirlətmələrini istəyir. Yel babanın üfürməsi ilə yumaq açılır və yolunu itirmiş insanlar mənzilbaşına çatır.

Yel çərşənbəsində oyanan külək suyu, odu hərəkətə gətirir. İnama görə, Yel çərşənbəsində Yel baba yatmış torpağı silkələyib oyadır, cana gətirir. Əski etiqadlara əsasən, həmin gün "qara nəhr"də yatmış dörd cür külək Yer üzünə çıxır. Əvvəlcə özü təmizlənir, sonra isə hərəsi bir libasda özünü göstərir. Ağ yel - ağ libasda, qara yel - qara libasda, xəzri - göy libasda, gilavar qırmızı libasda təsəvvür edilir. Bu rənglərin hər birinin mifik mənası var. Bu dördlüyün cəmində Yel çərşənbəsi qısa müddətdə bütün dünyanı gəzib dolaşır.

Əski etiqada görə, Yeli əsdirəni söyməzlər. Yel çərşənbəsində Yel babanı köməyə çağırarlar. Deyirlər ki, Yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət edərək Yel babanı çağırmaq lazımdır. Yel baba sənin çağırışını eşidib əssə, söyüdün budaqlarını torpağa toxundursa, deməli, diləyin yerinə yetəcək.

Üçüncü çərşənbədə insanlar böyük həvəslə yazın gəlişinə hazırlaşırlar. Bu çərşənbə günü bütün evlərdə təmizlik işlərinə başlanılır. Qadınlar, qızlar evlərindəki yorğan-döşəyi, xalça-palazı havaya çıxararaq təbiətin yenilənən, isinməkdə olan nəfəsi ilə təmizlənməsini istəyirlər. Ev-eşiyə qış fəslinin, soyuqların gətirdiyi süstlüyü pozur, hər tərəfi silib-süpürür, yuyub təmizləyirlər.

Boz ayın digər çərşənbələrində olduğu kimi, Yel çərşənbəsində də insanlar tonqallar qalayır, üzərindən tullanırlar. Evlərdə südlü plov bişirilir. Süfrələr daha çox quru meyvə, dənli bitkilərdən hazırlanmış çərəzlərlə bəzənir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Novruz ədəbiyyatda



# Yel baba

Yel baba, dağıt çəni,
Qov dumanı çöllərdən.
Apar qarı, şaxtanı,
Bu soyuğu ellərdən.
Buludları parçala,
Qoy göy üzü görünsün.
Qışı çıxart dağ başına,
Qoy quzeyə sürünsün.
Günəş daim gülsün bizə,
Camalından nur tökülsün!
Dan ulduzu işıq saçsın,
Fəcir aydın, qoy sökülsün!
Gündüz günə boyansın,
Yer altında qarışqalar,
Çöldə quşlar oyansın.
Qoy açılsın bulaqların
Buz bağlamış göz qapağı.
Şırıldasın axan sular;
Qoy ərisin buz da, qar da.
Otlar çıxsın qar altından
Hər mahalda, hər diyarda.
Yer tərləsin, buğlar qalxsın
Topa-topa bulud kimi!
Səhər mehi sığal çəksin
Arzu kimi, ümid kimi!
Çöl çağırsın, düz səsləsin
Körpələri qucağına.
Qoca Nənəm kösöv qoysun
Həyətdəki ocağına.
A Yel baba, a Yel baba,
Qoy çağlasın su-sel, baba!

***Əhməd CAVAD***

## İlin fəsilləri

# Yaz bitirər, yay yetirər, payız götürər, qış ötürər

**Yer kürəsində fəsillərin əmələ gəlməsi Yerin Günəş ətrafına dolanması, Yerin hərəkət oxunun Günəşətrafı orbit müstəvisinə meyilli olması və bu meyilliliyin fəzada sabit qalması ilə əlaqədardır.**



Fəsillərdə yaz gecə-gündüz bərabərliyi - baharın başlanğıcı, yay Günəşduruşu - yayın başlanğıcı, payız gecə-gündüz bərabərliyi - payızın başlanğıcı və qış Günəşduruşu - qışın başlanğıcı üçün əsas göstəricidir.

**Yaz bərabərliyi:** Martın 21-də (bəzən 20-22-si) Günəş göy ekvatorunu kəsərək, dünyanın Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçir. Həmin gün Yerin Şimal və Cənub yarımkürələri Günəş şüaları ilə eyni dərəcədə şüalanır. Yer kürəsinin hər yerində gecə-gündüz ilə ekvatorun kəsişdiyi nöqtə yaz bərabərliyi nöqtəsi adlanır. Bu, Yerin Şimal yarımkürəsində astronomik baharın başlanğıcı deməkdir. Günəş Qoç bürcünə daxil olur.

**Yay Günəşduruşu:** İyunun 22-də Günəşin günorta hündürlüyü maksimal həddə çatır. Həmin gün Yerin Şimal yarımkürəsində ən uzun gündüz, ən qısa gecə olur. Bu, astronomik yayın başlanğıcıdır. Yayın bu anına yay Günəşduruşu deyilir. Günəş Əkizlər bürcündə olur.

**Payız bərabərliyi:** Sentyabrın 22-də Günəş göy ekvatorunu kəsərək Şimal yarımkürəsindən Cənub yarımkürəsinə keçir. Yenidən gecə ilə gündüz bərabərləşir. Ona görə həmin an payız bərabərliyi adlanır. Astronomik payızın başlanğıcıdır. Günəş Qız bürcündə olur.

**Qış Günəşduruşu:** Dekabrın 22-də Günəşin günorta hündürlüyü minimal olur. Ən uzun gecə, ən qısa gündüz olur. Bu, astronomik qışın başlanğıcıdır. Həmin an qış Günəşduruşu adlanır. Günəş Oxatan bürcündə olur.

Fəsillərin hərəsi üç ay hesablanmış və əsas etibarı ilə təsərrüfatla əlaqələndirilmişdir. Azərbaycanda xalq arasında fəsillər belə səciyyələndirilir: yaz bitirər, yay yetirər, payız götürər, qış ötürər. Və yaxud: üçü bizə yağıdı (qış), üçü cənnət bağıdı (yaz), üçü yığıb gətirir (yay), üçü vurub dağıdır (payız).



# Qarayaz

**Yaz fəslinin əvvəlinin xalq arasında deyilən adlarından biri də qarayazdır. Bu müddət aprel ayının ortalarınadək davam edir.**

Həmin vaxt havalar tez-tez dəyişir, bəzən boran olur, günəşsiz günlərin sayı çoxalır, tutqun keçir, isti gündüzdən sonra soyuq gecə gəlir. Çox yerlərdə isti-quru qara yel əsir. "Martın hamısı aprelin yarısı" deyimi də görünür bununla əlaqədar yaranıbdır.

Bu vaxt elə bir dövrə təsadüf edir ki, keçən ildən tədarük olunan ərzaq və yem ehtiyatı tükənir, maldarlar qarayazın əvvəllərində çox ehtiyatlı olurlar. El arasında deyilir ki, "taxçada saxla, boxçada saxla, qarayaza bir pəncə ot saxla". Çünki ilin bu vaxtında havalar tez-tez dəyişdiyindən kənd təsərrüfatı işlərinə başlamaq da çətinləşir, yəqin ki, həmin dövrün qarayaz adlanmasının bir səbəbi də budur.

Qarayaz keçmişdə kəndlilərin, xüsusilə elat camaatının həyatında ağır, çətin dövr sayılırdı. Ehtimal ki, "Novruz günü yaz olar, 40 kötük də az olar" el sözü də bununla əlaqədar meydana gəlib. Bayramdan sonra 40 kötük yanar - deyiblər. Çünki yazın başlanmasına baxmayaraq, hələ soyuqlar, qış müvəqqəti də olsa, geri qayıda bilər. Buna görə də qarayaz ayı çıxmamış sobaları yığışdırmazlar. Bu müddətdə çobanın ot ehtiyatı tükənməsin gərək. Bunu nəzərə alan elat oğlaqları çölə çıxarmazdı, ot-saman, un-çuval, ərzaq ehtiyatını qoruyub saxlayardı. Burada "Qarayaz hirslənsə, 40 şələ odun və 40 çuval saman lazımdır" deyimi yada düşür.

## Adətlər və inanclar

# Günəş təqvimi

**Bu, Günəşin illik zahiri hərəkətinə əsaslanan təqvimdir. Günəş - Şəmsi təqvimi Ay təqvimindən fərqli olaraq daha dəqiqdir.**



Bu təqvim Miladdan əvvəl IV minillikdə Misirdə yaranmışdır. Orada yayın qızmar vaxtında Nil çayı daşar, Sirius ulduzu görünər və yay Günəşdurması baş verər. O vaxtdan da Yeni il hesablanardı. Yerin Günəş ətrafında bir tam dövr etməsi nəticəsində yaranan həqiqi ilin uzunluğu 365 gün 5 saat 48 dəqiqə 46 saniyədir.

Ay ilə hesablanan ilin uzunluğu həqiqi Günəş ilinin uzunluğundan azdır. Belə ki, birinci ikincidən ilin qısa, yaxud uzunluğundan asılı olaraq 11-12 gün fərq verir. Ona görə də Günəş təqvimində ilin başlanğıcı həmişə eyni vaxta düşür. Bir sıra bayram və mərasimlər (qurban, orucluq, məhərrəmlik) Qəməri təqviminə əsasən keçirildiklərindən hər il 11-12 gün geri çəkilir.

Günəş təqvimi dəqiq astronomik hadisəyə, yəni Günəşin dünyanın Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçməsi ilə baharın gəlişinə, yaz fəslinin - Novruzun başlanmasına uyğun gəlir. Günəş təqvimi ən geniş yayılmış beynəlxalq təqvimdir.

# Yaz nübarı



Boz ayın dörd çərşənbəsindən üçüncüsünün el arasında deyilən adlarından biri də Gül çərşənbədir. Bu çərşənbədə meşələrdə, tarlalarda novruzgülü açır. Bu yerlərin yaxınlığında yaşayanlar, xüsusən uşaqlar, gənclər həmin güllərdən toplayıb çərşənbə xonçasına qoyur, eyni zamanda "yaz nübarıdır" - deyə hamını muştuluqlayırlar.

# Ərgənəkon bayramı



Əbülqazi Bahadır xan XVIII əsrdə qələmə aldığı "Şəcəreyi-tərakimə" ("Türklərin şəcərəsi") əsərində göstərir ki, türklərin qədim əcdadları dörd tərəfdən dağlarla əhatə olunmuş Ərgənəkon adlı çox gözəl bir məkanda məskən salıblarmış. Onlar burada 400 il yaşamış, ancaq zaman içində həm özləri, həm də qoyun, at və dəvə sürüləri o qədər artıb çoxalmışdır ki, məskun olduqları yer onlara dar görünmüş, ot, su sıxıntısı çəkməyə başlamışlar. Ətraflarını çevrələyən sərt, sıldırım qayalı keçilməz Ərgənəkon dağlarını heç bir vəchlə aşıb genişliyə çıxa bilmirlərmiş. Ərgənəkon dağları boyaboy dəmiriymiş. Bir gün dağın ətəyində qoyun sürüsünü otaran çoban boz qurdun qoyunun birini qapıb qaçdığını görür. Çoban qurdun dalınca yüyürüb baxır ki, qurd dağın altına girib qeyb olur. Yaxınlaşıb görür ki, dağın altından o biri üzə dar bir oyuq var. Qurdun bu oyuqdan keçib getdiyini yəqinləşdirdikdən sonra gəlib əhvalatı elin başçısına söyləyir. Xaqan bilicilәri başına yığıb həmin yerə gəlir. Dağın o biri üzünə keçən dar oyuğu gördükdən sonra məsləhət-məşvərət eləyib bu qərara gəlirlər ki, dəmirçilər oyuğun çevrəsindəki dəmiri əridib buradan at-dəvə keçə biləcək bir yol açsınlar. Uzun zəhmət və əziyyətdən sonra boz qurdun keçib getdiyi həmin oyuq əridilərək böyüdülür, türklər də var-dövlətlərini götürüb dağın o biri üzünə - otlu-sulu geniş düzənliklərə çıxa bilirlər. Boz qurdun yol göstəriciliyi ilə dəmir dağların mühasirəsindən - sıxıntıdan çıxışı yeni günün - yeni həyatın başlanğıcı sayaraq əziz tutan türklər hər il həmin gün böyük tonqal yandıraraq ocaqda qızdırdıqları dəmiri zindan üstündə döyər və Ərgənəkondan çıxışı bayram edərdilər.

# Əvrəz



Bahar fəslinin başlanğıc çərşənbələrində təsərrüfat işləri ilə bağlı el-obada təşkil olunan iməcilik əvrəz adlanırdı. Təsərrüfat işlərini görməyə imkanı olmayan ailələrə, köməksizlərə, ailə başçısını itirənlərə əvrəz adı ilə kömək göstərilirdi. Min illərin sınağından çıxıb dövrümüzədək gəlib çatan bu qədim el adəti könüllü olub, insanların bir-birinə təmənnasız köməyi kimi təşəkkül tapmışdır. Əvrəz yiyəsi kəndin ağsaqqalı ilə məsləhətləşir, ərki çatan, sözü keçən adamlara iməcilik etmək istədiyini bildirirmiş. El içində bəzən əvrəzi carçılar yayırmış. Carçı əvrəzin kim tərəfindən, nə məqsədlə çağırıldığını bəyan edirmiş. Vədə tamam olan gün el yığışıb əvrəz yerinə əkin sahəsinə çıxırmış. Bir günün içindəcə bir aya görüləcək işin öhdəsindən gəlirlərmiş. Xəbəri olan əvrəzə gəlməsə bu ayıb sayılırmış.

Şum əvrəzində əkinə bir neçə kotan çıxarılırdı. Kimin kotanı tez milə çıxıb birinci baş eləsə ona hədiyyə verilirdi. Əvrəz çal-çağırla başlayarmış. Günortaüstü əvrəz yiyəsi günorta naharı verərmiş.

Biçin əvrəzi də varmış. Ən yaxşı biçinçini bu vaxt üzə çıxarırmışlar. Biçinçilərdən kim birinci dərzi biçib əvrəzçinin qabağına qoysa, həmin adam əvrəzin qalibi sayılırmış. O adama hədiyyə verilirmiş. Sonra birinci dərzi xırmana gətirib çıxaran arabaçıya da xələt verilirmiş.

Əvrəz xeyriyyəçilik ənənəsi bu gün də davam etdirilir. Ehtiyacı olanlara təmənnasız yardım göstərilir, dar ayaqda olanlara himayədarlıq edilir.

# Fərvərdin bayramı



Bu, "Avesta" üzrə ilin başlanğıcıdır. Yazın birinci günü, yəni yeni ilin ilk günü fərvərdin ayının əvvəlindən hesab edilmişdir. Buna görə də bir sıra mənbələrdə Novruz bayramının adı "Fərvərdin" bayramı kimi də qeyd olunur.

# Çömçəxatun

**Yaz fəslinin əvvəlində yağış yağmayanda, quraqlıq olanda adamlar bu münasibətlə müxtəlif ayinlər, mərasimlər keçirərmişlər.**



El cavanları bir yerə yığışar, bir çömçə götürüb üstünə parça salar, qapı-qapı gəzib mahnı oxuyardılar. Hər evdə onlara pay verilər, çömçəyə isə bir az su tökülər. Uşaqlar payı özlərinə götürər, çömçədəki suyu bir ağacın dibinə tökər, çömçəni də həmin ağacdan asardılar. Çox keçməmiş yağış yağardı. Buna "çömçəxatun gəzdirmək" deyilir. Çömçəxatunu gəzdirərkən oxuyardılar:

Çömçəxatun nə istər?
Tanrıdan yağış istər,
Qoyunlara ot istər,
Quzulara süd istər.

Çömçəxatun nə istər?
Tanrıdan bol su istər,
Ağaclara bar-bəhər,
Çobana quzu istər.

Əlincənin buludu,
Yetimlərin umudu,
Tanrı, bir yağış yetir,
Demilərim qurudu.

Çömçəxatun nə istər?
Göylərə bulud istər,
Mal-qaraya çoxlu süd,
Dağlarda bol ot istər.

Mərasim aksiyasının başlıca məqsədi sözün magik gücüylə təbiətə təsir göstərməkdir.

# Üzərlik



El inamına görə üzərlik qoruyucu, şəfaverici keyfiyyətə malik bitkidir. Çöl, yarımsəhra və səhralarda, bəzən yaşayış yerlərində, yol kənarlarında və s. yerlərdə bitir. Şərq xalqları, o sıradan azərbaycanlılar arasında gözdəyməni sovuşdurmaq məqsədilə üzərlik yandırmaq adəti yayılmışdır. Novruzda, axır çərşənbə gecəsində qış çiləsindən çıxmaq üçün üzərlik yandırıb tüstüsünü oğul-uşağa, ev-eşiyə verirlər.

Tonqal üstündən tullananlar oda üzərlik səpirlər. Özü də yandırılan məqamda belə bir deyim də söyləyirlər:

*Üzərliksən, havasan,*
*Cəmi dərdə davasan.*
*Balama göz vuranın*
*Gözlərini ovasan.*
*Üzərliklər çırtlasın,*
*Yaman gözlər partlasın.*

*Çörlü-çöplü üzərlik,*
*Başı börklü üzərlik.*
*Bizi çilədən çıxart,*
*Göstər hökmün üzərlik.*

***Hazırladı:***
***İ.ƏLİYEVA,***
***"Azərbaycan"***



# İÇƏRİŞƏHƏR



● Bakı əsilzadələri

# Məşhur nəslin tanınmış nümayəndələri

**Azərbaycan torpağı xalqımızın adını ucaldan oğullar yetişdirmişdir. İçərişəhərdə, Bakının qədim məskənində dünya miqyasında tanınan məşhur nəsillər olmuşdır. Bu nəsillərin nümayəndələrinin bilik və təcrübəsinə daim ehtiyac duyulmuş, şəxsiyyətləri ehtiram hissi oyatmışdır. İçərişəhərdə belə şəxsiyyətlər çoxdur. Onlardan biri də məşhur Tağıyevlərdir.**

İçərişəhər sakini, 2-ci dərəcəli gildiya taciri Hacı Zeynalabdin Tağıyev Bakı milyonçusu Zeynalabdin Tağıyevin adaşı idi, ona diribaş, cəld, müdrik olduğu üçün Qatır Zeynalabdin də deyirdilər. İçərişəhərdə "Zəncirli" binanın böyründə 1872-ci ildə tikilən bina ona məxsus idi. Bina memarlıq cəhətdən çox zəngin və bəzəklidir. Borokko üslubunda tikilmişdi. Bu gün çox təəssüf ki, bina sökülmüşdir və yerində keçmiş ensiklopediyanın binası tikilmişdir. Qatır Zeynalabdin ləqəbini ona qazandıran İçərişəhərin qala darvazası olmuşdır. Qala divarının önündə bu insanın bir sıra dükanları var idi. Dükanların narahat yerdə yerləşməsinə görə alıcısı yox idi və onları icarəyə də verə bilmirdi. Onda Tağıyev yerli məmurlara müraciət edib qala divarında bir qapı açdırır. Bu barədə H.Sarabski "Eşitdiklərim, gördüklərim" adlı kitabında məlumat vermişdir. Qapı Qoşa qala qapısından yuxarı gedən yol üstündə yerləşirdi. Forması çatma tağ şəklində, üzərində isə daş dişlər tikilmişdir. Hətta ondan sonra qala divarının üzərinə bərpa işləri aparılan zaman bütün divar boyu "maşikul" adlanan dişlər divara əlavə olunmuşdu. İsmailiyyə binasının yanında kəsilən qapı da Qatır Zeynalabdinin çalışması nəticəsində yaranmışdır. Hacı Zeynalabdinin Məhəmməd Hənifə adlı oğlu var idi. O, gənc yaşından atasının yanında ticarət işləri ilə məşğul olurdu və qısa zamanda 2-ci gildiya taciri rütbəsini almışdır. Sonralar o, Almaniyadan bir gəmi alıb öz "Vulkan" dəniz ticarət kampaniyasını yaradır. Bu insan cəsarətli, güləşlərdə iştirak edən bir xeyriyyəçi və İçərişəhər əhalisi arasında yüksək nüfuza malik olan bir şəxs idi.



Eyyub Tağıyev













soldan 2-ci E.Tağıyev və Hindistanın baş naziri C.Nehru

XX əsrdə xalqımız bir neçə qanlı faciə yaşamışdır. Bunlar 1918-ci ilin mart hadisələri, 1990-cı ilin yanvarında sovet ordusu tərəfindən Bakida yerli əhalinin vəhşicəsinə qırılması və 1992-ci ilin fevralında Xocalıda törədilən soyqırımı olmuşdur.

1918-ci il hadisələri zamanı Məhəmməd Hənifə İçərişəhərdə 350 nəfərdən ibarət silahlı qrup yaradır və onu erməni daşnaklarına qarşı mübarizəyə hazırlayır. Daşnaklar Şamaxı darvazası yanında evin damından İçərişəhəri atəşə tutub şəhərə girmək üçün cəhd edirlər. Buna nail ola bilmədikləri üçün yaxında olan gözəl "İsmailiyyə" binasını yandırırlar. Məhəmməd Hənifə öz puluna silah və patron alıb şəhər əhlinə paylamışdı. Bütün İçərişəhərin qapıları nəzarət altında saxlanırdı, xüsusən Qoşa qala qapısı. Onda erməni daşnakları bu fikirdən əl çəkib geri çəkilirlər. 1920-ci ilin aprel ayında sovet hakimiyyəti qurulandan sonra ermənilərin donosu əsasında Məhəmməd Hənifə və başqa nüfuzlu şəhər sakinləri Nargin adasında güllələnirlər.

Bu nəsildən olan başqa bir numayəndə Eyyub İsmayıl oğlu Tağıyevdir. Yuxarıda söz açdığımız Məhəmməd Hənifə Eyyubun əmisi idi.

Bu, məşhur neftçi, texnika elmləri doktoru, Sibirdə "İkinci Bakı" adlanan neft yataqlarının ixtiraçılarından, Hindistan və Braziliya neftini kəşf edən, üç dəfə Stalin mükafatı laureatı, dünyada tanınan çoxpilləli qazma metodunun müəlliflərindən olan İçərişəhər sakini Eyyub Tağıyevdir (1912-1967).

Tağıyev fəaliyyətinə Suraxanı eksperimental qazma kontorundan başlamışdır. İlk dəfə dünya təcrübəsində yüksək sürətli qazma texnologiyası burada tətbiq olunmuşdur. Sonralar ABŞ və Avropa ölkələrinin iri neft firmaları onun istehsalına lisenziya əldə etmişlər. SSRİ-nin şərqində Perm şəhəri yaxınlığında hökumət neft kəşfiyyatını aparmaq qərarına gəlib Tağıyevi ora göndərmişdir. Müəyyən vaxt keçəndən sonra onun rəhbərliyi altında "İkinci Baki" neft yataqları aşkar edilmişdir.

1955-ci ildə Hindistan Prezidenti Bahadur Şastri sovet rəhbərliyinə muraciət edib ölkəsində neftin aşkar olunması üçün mütəxəssis göndərilməsini xahiş edir. 1956-cı ildə Tağıyev Hindistana göndərilir. Müxtəlif geoloji vilayətlər öyrənilir, neft sahələrinin dəqiq planı qurulur və qazma işləri başlayır. Pəndjab və Bombeyə yaxın sahələrdə quyular min tonlarla neft verir. Tağıyevə yüksək mukafat ayrılır, amma o, bundan imtina edir. Onda hökumət tərəfindən qərara alınır ki, o, Hindistan hökumətinin ömürlük baş məsləhətçisi təyin edilsin.

Hindistanda ona böyük hörmət və ehtirama görə Kəlküttə şəhərinin parkında şərəfinə qara mərmərdən heykəl qoyulmuşdır. Altında isə "Hindistan neftinin atası" sözləri həkk olunmuşdır. 1960-cı illərdə Tağıyev Braziliyaya ezam edilir. Əsas məqsəd ölkənin neft sənayesinin yaradılması idi. Braziliya nefti Venesuela və Yaxın Şərqdən alırdı. Altı ay ərzində ağcaqanad, isti iqlim şəraitində geoloji kəşfiyyat aparılır, Amazonka çayı hovzəsi öyrənilir və zəngin neft yataqları aşkar edilir. General Albino Silva bu kəşfə görə Tağıyevə təşəkkür edir və deyir ki, onun kəşfləri Qərb mütəxəssislərinin dediyini tamamilə rədd etdi. Braziliyada neft var, böyük miqdardadir və olkəni təmin edəcək. Bu hadisə ilə bağlı kitab nəşr edilir və reklamlarda Tağıyevin ünvanına təriflər deyilir, bütün qəzetlər bu barədə yazır.

Tağıyev 50 kitab, monoqrafiya, 18 beynəlxalq patent almışdır. Onun adına Moskvanın Neft və Qaz Akademiyasında tələbələr üçün iki mükafat təsis edilmişdir.

*Gülnar ƏLİYEVA,*
*İçərişəhər Muzey Mərkəzinin müşaviri*

● Yaddaş

**Azərbaycanda baletin yaranma tarixi 1940-cı ildən - Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletinin səhnələşdirildiyi tarixdən hesablanır. 1939-cu ildə o, Bakı Xoreoqrafiya Məktəbinin ilk buraxılışı münasibətilə uşaqlar üçün birpərdəli "Tərlan", bir ildən sonra isə məxsusi olaraq Qəmər Almaszadə üçün "Qız qalası" baletlərini yazır. "Qız qalası" baleti yalnız Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə ilk balet nümunəsidir.**



Baletin premyerası zamanı Q.Almaszadə Gülyanaq və K.Bataşov isə Polad rolunda

# "Qız qalası" baleti



Premyerası Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində oynanılmışdır. Tamaşanın ilkin librettosu da onun müəllifi Əfrasiyab Bədəlbəylinin qələmindən çıxmışdır. Əsas partiyanın (ifa kəsiminin) ilk yaradıcısı bəstəkarın həyat yoldaşı, ilk azərbaycanlı balerina Qəmər Almaszadə olmuşdur.

Bu balet sovet dövrünün məhsulu və Əfrasiyab Bədəlbəylinin ilk böyük əsəri olmaqla, tələbə ikən yazdığı diplom işi idi. Onun özü də zamanında qeyd edirdi ki, dəfələrlə ədəbiyyatçılar, tarixçilər, tənqidçilər Azərbaycanın nə tarixi qaynaqlarında, nə də folklorunda belə məzmuna rast gəlmədiklərini və bunun Azərbaycan ədəbiyyatına yad olduğunu tez-tez nəzərə çatdırardılar. Aydındır ki, sovetlərin sinfi mübarizə ideologiyası müsəlman xanını hər bir vəchlə əxlaqsız, ədalətsiz kimi qələmə verməyə çalışırdı. 50 yaşında xan cavan bir qıza aşiq olub, onu alsaydı, yaxud hərəmxanasında saxlasaydı, bu elə də pis sayılmazdı. Lakin atanın öz doğma övladına ehtirası, əlbəttə ki, qəbuledilməzdir. Sözsüz ki, bu qondarma süjet xətti əsrlər boyu Azərbaycan xalqının həyat tərzində bərqərar olmuş və hökm sürmüş islam əxlaq ideologiyasına ağır zərbə vurmaq qayəsi daşımışdır. Məhz bu leytmotiv 1923-cü ildə sovet kinematoqrafçıları tərəfindən çəkilmiş (Ə.Bədəlbəyli çox güman ki,"Qız qalası" baletinin məzmununu da məhz buradan götürmüşdür) "Qız qalası əfsanəsi" tammetrajlı səssiz bədii filminin əsasını təşkil etmişdir.

Belə ki, filmdə baş verən hadisələr köhnə Bakıda cərəyan edir: Səməd xanın həyat yoldaşı qız uşağını dünyaya gətirərkən vəfat edir. Sevimli həyat yoldaşının vəfat etməsi xəbərini xana çatdırarkən arvadının ölümündə yeni doğulmuş uşağı günahkar bilən qəzəblənmiş xan körpənin məhv edilməsi əmrini verir. Lakin xanın qaravaşı əmri eşidəndə çox mütəəssir olur. O, qızcığazın dalınca gələnlərə yalvarır ki, uşağı ona versinlər, onsuz da o sonsuzdur, qızı da götürüb məmləkətdən çıxıb başqa bir yerə köçər. Xanın adamları qızı qaravaşa verib xana da xəbər çatdırırlar ki, onun əmri artıq yerinə yetirilmişdir. Qaravaş isə qızı da götürüb şəhərdən kənara köçür. İllər sonra xan ova çıxarkən qızı Gülnarla qəflətən rastlaşır və onun eynən rəhmətə getmiş həyat yoldaşının tam oxşarı olduğunu görür və anlayır ki, bu qız onun öz övladıdır. Onu saraya gətirir. Gülnar anasının libaslarını geyinərkən xan Gülnarın simasında sanki vəfat etmiş arvadını görür. Hisslərini cilovlaya bilməyən ata, nəhayət, ürəyini qızına açır. Gülnar bu biabırçılığa dözməyib xanın onun üçün tikdirdiyi qaladan özünü dənizə ataraq həlak olur.

Filmin heyət üzvlərinin etnik mənsubiyyətinə nəzər saldıqda, düşüncə sahibi olan hər kəsə hər şey aydın olur: ssenari müəllifi: N.Breslav-Lurye, quruluşçu rejissor: Vladimir Ballyuzek, quruluşçu operator: Vladimir Lemke, quruluşçu rəssam: Vladimir Ballyuzek, qrim rəssamı: Georgi Parisaşvili.

Filmin çəkilişindən 17 il sonra yazılmış "Qız qalası" balet əsərinin məzmunu müəyyən dərəcədə birinci ilə "ata-qız" süjet xətti baxımından eynilik təşkil edir: Qəddarlığı və zalımlığı ilə tanınmış Bakı hökmdarı Cahangir xan oğlunun - varisinin doğulacağını səbirsizliklə gözlədiyi bir halda, qız övladının dünyaya gəlişi xəbərini qəzəblə qarşılayır. O, uşağı öldürməyi, anasını isə köləyə çevirməyi əmr edir. Lakin vəzirin uşağa yazığı gəldiyindən onu dayəsinə verib, saraydan gizlicə uzaqlaşmalarına şərait yaradır. Aradan illər ötür. 18 yaşına çatmış Gülyanaq öz gözəlliyi ilə hamını heyran edir. O, çox xoşbəxtdir, çox sevdiyi Polad adlı gənclə ailə həyatı qurmağa hazırlaşır. Toyun qızğın məqamında xan öz adamları ilə kəndlilərin üstünü alır. Qızın bənzərsiz gözəlliyi ona vaxtı ilə sevdiyi keçmiş arvadını xatırladır. Xan qərar verir ki, Gülyanaq onun arvadı olmalıdır. Polad sevgisi uğrunda xanla mübarizəyə qalxır. Cahangir xan əmr verir ki, Polad ölməlidir. Öz sevgilisinin həyatını xilas etmək üçün Gülyanaq xanın arzusunu yerinə yetirməyə razılaşır, lakin bunun qarşılığında şərt qoyur: xan onun üçün dənizin ortasında hündür qala tikdirməlidir. Cahangir xan razılaşır. Nəhayət, qala tikilib qurtarır. Xan toy tədarükünə başlamaq əmri verir. Hətta Gülyanağın doğma qızı olduğunu bildən sonra da onu qəlbindən çıxara bilmir. Poladla xanın döyüşü sonuncunun ölümü ilə nəticələnir. Poladın öldüyünü zənn edən Gülyanaq ümidsizliyə qapılaraq, özünü dənizə atır və qala əbədi olaraq bakirəlik rəmzinə - "Qız qalası"na çevrilir.

Filmdə və balet əsərində təsvir olunan hadisələr guya Qız qalası tikilməmişdən öncə baş vermişdir. Əslində isə, onlar Qız qalasının tikintisi başa çatdırıldıqdan əsrlər sonra uydurulmuş əfsanədir.

Qalanın "Qız qalası" adını daşıması haqqında xalqımızın şifahi poetik yaradıcılığında müəyyən rəvayətlər yer almışdır. Xalqımızın minilliklər boyu hiss və həyəcanını əks etdirən, dərin təfəkkürünün məhsulu olan bir əfsanədə hökmdar qızını onun sevmədiyi şəxsə ərə vermək istəyir. Şahzadə isə rəiyyət içindən çıxan, kasıb və sadə bağbana aşiqdir. Bu isə saray qayda-qanunlarına ziddir. Şahın qızı yalnız öz təbəqəsindən olan şəxslə ailə həyatı qura bilər. Hökmdara qızının bağbanla bir-birini sevdiyi xəbəri çatdırıldıqda o, çox qəzəblənir: qızının qalada dustaq edilməsi və bağbanın edam olunması əmrini verir. Şahzadə buna dözməyərək özünü qalanın damından dənizə atır. O zamandan da qala xalq arasında "Qız qalası" kimi adlanmağa başlayır.

"Qız qalası" baletinin ilk səhnə təcəssümündən onilliklər sonra, 1959 və 1999-cu illərdə yeni redaksiyası təşkil edilir. İkinci redaktədə (1959-cu il) baletin quruluşçu baletmeysteri, sonralar SSRİ Xalq artisti və professor adına layiq görülmüş Qəmər Almaszadə, tamaşaya yeni bədii tərtibat verən isə onun qardaşı Ənvər Almaszadə idi. Bu redaksiyada Poladla Gülyanağın faciəsi, Cahangir xanın zalımlığı özünü daha kəskin büruzə verir. "Qız qalası"nın 2-ci redaktəsinin ifaçıları - Gülyanaq rolunda SSRİ Xalq artisti Leyla Vəkilova və öz sevgisini xanın pəncəsindən igidliklə qorumağa çalışan Polad surətinin yaradıcısı Xalq artisti Maqsud Məmmədovun adları Azərbaycan balet tarixində silinməz izlər qoymuşdur.

Sonuncu, yəni 1999-cu ildə edilmiş üçüncü redaktədə baletin librettosu və musiqisi Fərhad Bədəlbəyli (Əfrasiyab Bədəlbəylinin qardaşı oğlu) tərəfindən yenidən işlənərək yeni formaya salınmışdır. Fərhad Bədəlbəyli tərəfindən edilmiş son redaktə və quruluşda baletin dramaturji xətti kökündən dəyişdirilmiş və librettodan "ata-qız" xətti ümumiyyətlə çıxarılaraq, mətnin məzmunu xalqımızın mədəniyyət və əxlaq prizması baxımından öz məcrasına salınmışdır.

Baletin yeni redaksiyasında balet truppasının bədii rəhbəri Yuliana Əlikişizadə, əsas rolların ifaçısı Əməkdar artist Mədinə Əliyeva və Xalq artisti Gülağa Mirzəyev olmuşlar. Baletdə həmçinin Afaq Məlikovanın rəhbərlik etdiyi Dövlət Rəqs Ansamblının üzvləri də iştirak etmişlər.

Əfrasiyab Bədəlbəylinin Qəmər xanımın şərəfinə yazdığı bu balet əsəri sonralar yeni balet nümunələrinin yaranmasına yol açmışdır.

*Vəfa GÖVHƏR,*
*Bakı Xoreoqrafiya Akademiyasının əməkdaşı*

● Danışan tarix

# Memarlıq incisi

**İçərişəhər təkcə Azərbaycan üçün deyil, həm də bəşəri dəyər kimi yüksək qiymətləndirilən tarixi abidədir. Bunu UNESKO-nun Ümumdünya Maddi İrs Siyahısına İçərişəhərin Qız qalası və Şirvanşahlar Saray Kompleksi ilə birgə salınması da təsdiq edir. Azərbaycan memarlığının, Azərbaycan tarixinin bir hissəsi, xalqımızın maddi-mədəniyyət irsinin qiymətli nümunəsi olan bu abidələr UNESKO tərəfindən ümumdünya irsi kimi qəbul olunub. Bu da odlar yurdumuzun dünya mədəni irsinə çox gözəl bir töhfəsidir.**



İçərişəhərin Qoşa Qala Qapısı meydanında mövsümi olaraq hər bazar günləri "Meydan Bazarı" adlı mədəni-kütləvi tədbir keçirilir. Tədbirin keçirilməsində məqsəd Azərbaycan xalqının qədim sənətkarlıq ənənələrinin təbliği ilə yanaşı, Bakı sakinlərinin və paytaxt qonaqlarının öz istirahət gününün İçərişəhərdə keçirilməsinin stimullaşdırılmasıdır.

Mədəniyyətlərarası dialoq çərçivəsində ildə bir dəfə keçirilən "Qız qalası" Beynəlxalq İncəsənət Festivalı Azərbaycanın ən qədim və sirlərlə dolu dünya əhəmiyyətli abidələrindən olan Qız qalasının təbliği üçün böyük önəm daşıyır.

Müxtəlif ölkələrdən gəlmiş rəssamlar Qız qalasının maketlərini öz milli üslublarında bəzəyərək fərqli mədəniyyət və adət-ənənələrin sintezini əks etdirən əsərlər yaratmışlar, bu işlərdən ibarət sərgilər təşkil etmişlər. Bununla yanaşı, həmin nadir əsərlər dünyanın müxtəlif ölkələrində nümayiş etdirilərək, ümumdünya mədəni irsinin bir hissəsi olan Qız qalasının təbliğində əhəmiyyətli vasitəyə çevrilmişdir. Festivalın keçirilməsi tariximizi və milli irsimizi layiqincə qoruduğumuzu göstərir.

İçərişəhər açıq səma altında bir muzey olması ilə yanaşı, eyni zamanda dunya sivilizasiya ocaqlarından biridir. Bu şəhər içində qala divarları ilə əhatə olunmuş unikal bir şəhərdir və özünün infrastrukturu və yaşayış massivləri ilə canlı orqanizm təşkil edir. 4000-ə (1300 ailə) yaxın əhalisi olan İçərişəhərdə 18 hotel, bir neçə muzey, 100-dən artıq ictimai iaşə və ticarət obyektləri fəaliyyət göstərir.

Eyni zamanda, bu qədim şəhərdə olan abidələrin qorunub saxlanılması, burada yaşayan insanların sosial vəziyyətinin yaxşılaşdırılması fəaliyyət göstərən turizm infrastrukturunun - hotellərin, restoranların, muzeylərin, qalereyaların, digər elmi, mədəni mərkəzlərin fəaliyyətini ən yüksək səviyyədə təşkil etməkdir.

İçərişəhərin unikallığı, dünyadakı digər bu cür abidələrdən fərqi ondadır ki, bu, səhər açılıb axşam bağlanan muzey deyil, bu, canlı bir məkandır. Aydındır ki, hər bir canlı məkan hər zaman inkişaf edir, dəyişir. Buranın sakinləri hər zaman yeni arzularla yaşayırlar. Hətta bəzən bu insanlar unudurlar ki, tarixi məkanda ömür sürürlər və hər gün də XII, XV, XVII əsrin abidələri ilə ünsiyyətdə olurlar.

İki əsr bundan öncə qədim Bakı olan, indi İçərişəhər adlandırdığımız tarixi məkan hazırda müasir turizm mərkəzinə çevrilmişdir. Qoruq idarəsi tərəfindən tədqiq olunmuş memarlıq abidələri və tarixi yerlər konservasiya edilir, yeni görkəm alaraq turist marşrutlarına salınır, məhz turizm məqsədləri üçün istifadə edilir. Buna misal olaraq orta əsr karvan ticarət yolu olan - indiki A.Zeynallı küçəsi boyu yerləşən, orta əsr ab-havasına uyğun yeni görkəm almış tarixi-memarlıq abidələrini, Məhəmməd məscidini, məktəb-məscidi, Sıratağlı dini-memarlıq kompleksini, o cümlədən Qədim bağ kompleksini, Çin məscidini və digər rekreasiya zonalarını qeyd etmək olar.

Dünyanın bir çox olkələrində su mühiti ilə əlaqəli turizm obyektləri vardır. Məsələn, dənizkənarı bulvarlar, çimərliklər, turizm məqsədləri üçün dəyərləndirilən kiçik adalar və s. Bu baxımdan Xəzər dənizində, İçərişəhər yaxınlığında kiçik bir adada yerləşmiş, orta əsrlərdə Bayıl qəsri adlandırılmış bir abidənin öyrənilməsi, bərpa və konservasiya edilməsi, yaxın gələcəkdə turizm məqsədləri üçün istifadəsi də böyük əhəmiyyətə malikdir.

Son zamanlar İçərişəhərdə gedən torpaq-təmizlik işləri zamanı çoxlu sayda su kəhriz quyuları aşkar olunmuşdur. Bilavasitə su mühiti ilə bağlı olan bu mühəndis-texniki qurğuların əksəriyyəti konservasiya olunur, tarixi araşdırılır, texniki pasportu işlənilir, içərisi işıqlandırılır, üzəri orqanik şüşə ilə örtülür və turizm məqsədləri üçün istifadə olunur.

İçərişəhər kompleksinə daxil olan dunya əhəmiyyətli 3, ölkə əhəmiyyətli 28 memarlıq, konservasiya olmuş 8 arxeoloji və 600-dən çox yerli əhəmiyyətli abidələr xalqımızın zəngin mədəniyyətindən xəbər verir. Qoruq ərazisindəki XVIII-XIX əsr memarlığına aid elmi, tarixi və mədəni cəhətdən yüksək dəyərə malik onlarla bənzərsiz yaşayış binaları və orta əsrlərdə tikilmiş memarlıq abidələri dövlət tərəfindən qorunur.

İçərişəhərdə keçən əsrin əvvəllərindən 60-cı illərə kimi qısamüddətli, 1961-ci ildən etibarən isə stasionar arxeoloji qazıntılar aparılaraq 3 mədəni təbəqənin olduğu müəyyən edilmişdir. Birinci mədəni təbəqə antik dövrdən IX əsrədək olan dövrü, ikinci mədəni təbəqə IX-XIII əsrləri, üçüncü mədəni təbəqə XIII-XVII əsrləri əhatə edir. Arxeoloji kəşfiyyat və nəzarət işləri nəticəsində aşkar olunan qədim Bakının tarixini əks etdirən arxeoloji artefaktlar və son 30 il ərzində arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş antik dövr maddi-mədəniyyət nümunələri, habelə İçərişəhərin sahilə yaxın hissəsinin təhlili, analizi və təsnifatı belə bir fikir söyləməyə əsas verir ki, şəhərin qədim yaşayış yeri konkret olaraq sahilə yaxın, məhz ən qədim yazılı memarlıq abidəsi olan Məhəmməd məscidi və Qız qalası yerləşən ərazi və Bakı buxtası olmuşdur. Xəzərin suyunun səviyyəsinin tarixən artıb-azalması ilə bağlı elmi araşdırmalar və İçərişəhərdə yeni aşkar olunmuş qədim şəhərimizin tarixini əks etdirən maddi-mədəniyyət nümunələrinin təsnifatı Bakının yaşının təyin olunmasında əvəzsiz rol oynayır.

*Kamil İBRAHİMOV,*
*professor*

● Təsərrüfat həyatı

# Qədim Bakıda duz istehsalı və ticarəti

**Bakı qədim zamanlardan öz nefti və duzu ilə dünyada şöhrət qazanmışdır. Duz orta əsrlərdə Bakıətrafı və Abşeronda əsas istehsal sahələrindən biri olub. Bakının təsərrüfat həyatı Abşeronla sıx bağlı idi. Şəhər Bakı ətrafında, yarımadada hasil edilən zəruri təsərrüfat xammalı və kənd təsərrüfatı məhsulları ilə təmin olunurdu.**

Abşeronun neftdən başqa ən qiymətli hasilat məhsullarından biri də yarımadanın qərb hissəsindəki Masazır gölündən çıxarılan əla keyfiyyətli duz idi. Bakı duzu özünün kimyəvi tərkibinə, dadına, yodunun bolluğuna, eyni zamanda, rənginə görə digər ərazilərdə toplanan duzlardan fərqlənib. XIX əsrin 30-cu illərində Bakıətrafı duz göllərindən ildə 300 min xalvara qədər duz yığılırmış. Çuvallara yığılan duz dəvələrə yüklənərək Azərbaycanın müxtəlif bölgələrinə və xarici dövlətlərə satılmağa aparılırdı.

Xalq etimologiyasında duz istehsalı ilə bağlı xeyli rəvayətlər vardır. Rəvayətə görə, yerli xanlardan biri Bakıətrafındakı zəngin duz göllərini kəndlilərə icarəyə vermək və çoxlu pul qazanmaq istəyir. Lakin ertəsi gün duz göllərinin üstünü qan bürüyür. Bunu görən xan niyyətindən vaz keçir. Beləliklə, bakılılar tarixən duz satıb çörək qazanıblar. 1583-cü ilə aid türk mənbəsinə görə, Abşeronda neft mənbələrinin yaxınlığında "hər il üç min anbar tutan" duz yataqları var idi. Duzu gölün dibindən taxta xəkəndazlarla bir yerə yığır, kürəklə çıxarır, sonra arabalara yükləyib gölün qərb sahilinə gətirir və burada müəyyən ölçülü qalaqlara bölür, həmin qalaqları toxmaqla döyəcləyib bərkidir və gün altında qurudurdular.

Başqa bir mənbənin məlumatına görə, Abşeronda hər gün yayda 1 kub, qışda isə rütubət çox olduğundan onun yarısı qədər duz hasil edilirdi. Buradan onu cütatlı arabalarla, dəvələrlə digər şəhərlərə aparırdılar. Duz Bakıdan dəniz yolu ilə Həştərxan vasitəsilə Rusiyaya, İrana və başqa ölkələrə göndərilirdi.

Qabaqlayıcı tədbirlər səmərə verir

## Operativ qərargah:

## Bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi martın 10-dan 20-dək dayandırılır

Koronavirus (COVID - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir.

Nazirlər Kabinetinin yanında Operativ Qərargahdan verilən məlumata görə, Nazirlər Kabinetinin sərəncamına əsasən yoluxma hallarının qarşısının alınması və ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin davam etdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 10-dan 20-dək (ilk tədris günü mart ayının 27-si müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılır və bununla bağlı bütün tədbirlər təxirə salınır.

***AZƏRTAC***

## Təhsil Nazirliyi Nazirlər Kabinetinin sərəncamının icrası məqsədilə bütün təhsil müəssisələrinə tapşırıq verib

Xəbər verildiyi kimi, Nazirlər Kabinetinin sərəncamına əsasən, yoluxma hallarının qarşısının alınması və ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin davam etdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 10-dan 20-dək (ilk tədris günü mart ayının 27-si müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılır və bununla bağlı bütün tədbirlər təxirə salınır.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, sərəncamın icrası məqsədilə nazirlik bütün rayon (şəhər) təhsil şöbələrinə (idarələrinə), ali təhsil və orta ixtisas təhsili müəssisələrinə, peşə təhsili müəssisələrinə, məktəbdənkənar təhsil müəssisələrinə və nazirliyin tabeliyində olan ümumtəhsil müəssisələrinə müvafiq tədbirlərin görülməsinin davam etdirilməsini tapşırıb.

# Şəhidimiz son mənzilə yola salındı









Martın 7-də saat 05:40 radələrində "Qazax" Əlahiddə Sərhəd diviziyasının Qazax rayonunun Daş Salahlı kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsində xidməti vəzifələrinin icrası zamanı əsgər Qarayev Eltun Elman oğlu odlu silahdan açılmış atəş nəticəsində yaralanmış və dərhal Qazax Rayon Diaqnostika Mərkəzinə təxliyə edilsə də, həyatını xilas etmək mümkün olmayıb.

Şəhid əsgərimiz dünən doğulduğu Bərdə rayonunda son mənzilə yola salınıb.



Vida mərasimində Dövlət Sərhəd Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin və ictimaiyyətin nümayəndələri, Qarabağ müharibəsi veteranları, gənclər iştirak ediblər.

Eltun Qarayevin cənazəsi izdihamın müşayiəti ilə Bərdə şəhərindəki Şəhidlər xiyabanında əsgəri ənənələrə uyğun olaraq yaylım atəşləri altında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Tabutun üzərinə çəkilmiş üçrəngli Dövlət bayrağı əbədi xatirə olaraq onun ailəsinə təqdim edilib.

# Koronavirus: *ehtimallar və imkanlar*

Dünya miqyasında koronavirusun meqoiqtisadiyyata təsiri pandemiya həddinə çatmışdır. İlkin məlumatlar qlobal iqtisadi artımın bu il proqnozlaşdırılan 2,9 faiz əvəzinə cəmi 1,5 faiz olacağını ehtimal edir. Bu isə artımın iki dəfə azalması deməkdir.



Əsas zərbə virusun baş qaldırdığı Çinə dəyir. Yaponiyada, Koreyada və Avstraliyada da iqtisadi artım tempi geriləməkdədir. Ötən həftə maliyyə bazarlarında ümumən 3 trilyondan artıq, o cümlədən inkişaf etməkdə olan ölkələr üzrə 1,1 trilyon dollar ucuzlaşma qeydə alınmışdır. Çinin "qara qızıl"a olan tələbatı azaldıqca "Brent" markalı neftin qiyməti də aşağı düşür. Artıq "Brent" markalı neft yanvar ayından indiyədək 26 faiz ucuzlaşmışdır.

Bu il həmçinin hava nəqliyyatından istifadənin azalmasına görə 29,3 milyard dollar itki olacağı proqnozlaşdırılır. Yalnız yanvar ayında çinli turistlərin axınının kəsilməsi üzündən Avropanın turizm sənayesi 1 milyard avroluq itkiyə məruz qalmışdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı koronavirusun ölkəmizin iqtisadiyyatı üçün də müəyyən çətinliklər yaradacağını istisna etmir: "Neftin barelinin hətta bir dollar aşağı düşməsi cari əməliyyatlar hesabımıza illik təxminən 250 milyon dollar təsir edəcək. Lakin Azərbaycanın strateji valyuta ehtiyatlarının 52 milyard dollar olması ÜDM-in həcmini 8 faizdən çox üstələyir və bu da imkan verir ki, ölkənin fiskal dayanıqlığı təmin olunsun. Eyni zamanda Azərbaycanda xarici dövlət borcunun ÜDM-ə olan nisbəti 17 faizdir ki, bu da dünyada ən aşağı göstəricilərdən biridir. Bütövlükdə nə dövlət, nə də qeyri-dövlət sektorları üzrə xarici borcumuz təhdidedici səviyyədə deyildir. Digər tərəfdən, Azərbaycanda yığım səviyyəsi çox yüksəkdir və bank sektoru əvvəlki böhrandan lazımi nəticələr çıxarmış və immunitet qazanmışdır. Hazırda Azərbaycanda geniş mənada pul kütləsi 28,5 milyard manatdır. Kommersiya banklarının balansının müsbət zonada olması xarici şoklara qarşı bank sektorunun daha dözümlü olmasına imkan yaradır".

Reallıq ondan ibarətdir ki, koronavirus qlobal iqtisadiyyatda böhran səviyyəsinə çata biləcək şok effekti yaratmışdır. Böhran sözü Çin dilindən təhlükələr və imkanlar kimi tərcümə edilir. Bu prizmadan yanaşanda Azərbaycan da qlobal iqtisadiyyatın bir parçasıdır. Dünya çapında baş verən bütün proseslər, o cümlədən mənfi təmayüllər bizim üçün də təsirsiz ötüşməyir. Ticarət, nəqliyyat, logistika, turizm və s. kimi sahələrdə müəyyən çətinliklərin yaranma ehtimalını inkar etmək mümkün deyil. Azərbaycanda koronavirus böhranının təsirlərini azaltmaq üçün bütün zəruri tədbirlər görülür və eyni zamanda, təklifləri nəzərdən keçirəndə o da aydın olur ki, hökumət eyni zamanda çevik addımlar atır və müsbət perspektivlərə köklənmək məqsədilə müəyyən ideyaları nəzərdən keçirir.

Zərurət yaranarsa, ÇXR ilə olan idxal-ixracımızı başqa ölkələrlə, o cümlədən Türkiyə ilə əvəzləmək mümkündür. Hazırda ticarət sahəsində yarana biləcək hər hansı bir problemi fürsətə çevirmək istiqamətində işlər gedir. Türkiyə ilə bağlanan Preferensial Ticarət Sazişi də imkan verəcək ki, həmin mallar Azərbaycan bazarında daha ucuz olsun. O da maraqlıdır ki, Çindən və İrandan koronavirusa görə dünya bazarlarına xüsusən meyvə-tərəvəz və içki ixracı azalır. Bu isə Azərbaycana imkan verir ki, daha yüksək qiymətə və daha çox həcmdə həmin məhsulların ixracını genişləndirsin, xarici bazarlarda yeni mövqelər tutsun. Artıq Azexport.az portalına meyvə-tərəvəz və kartof üçün daha çox ixrac sifarişləri gəlməyə başlamışdır. Eyni zamanda yaranmış vəziyyətdə Azərbaycan həm də idxalı əvəzləmə imkanlarına malik olacaq. Bu isə cari əməliyyatlar balansına müsbət təsir göstərəcək.

V.Qasımlı qeyd edir ki, artıq dünyanın bir çox hava yolu şirkətləri, turoperatorları ciddi itkilərlə üzləşir. Cənub-Şərqi Asiya ölkələrinə səyahət planlaşdıranların böyük bir hissəsi səfərlərini təxirə salır. Bu səbəbdən turizm sektorunun zərərləri astronomik rəqəmlərlə ölçülə bilər. 2019-cu ildə Azərbaycandan İrana 2 milyon nəfər gedib və İrandan Azərbaycana 256 min nəfər gəlib. Yəni ölkəmizdən İrana gedənlər oradan gələnlərdən 8 dəfə çoxdur. Bu isə o deməkdir ki, bu problem uzandığı halda Azərbaycanın İranla turizm balansında bizim xeyrimizə dəyişiklik olacaq. Ümumiyyətlə, dünya turizmində geriləmə Azərbaycandan xaricə gedənlərin sayına bir tərəfdən mənfi təsir etsə də, digər tərəfdən, ölkənin valyuta balansına müsbət təsir göstərəcək.

Azərbaycan dövləti üçün vətəndaşlarının sağlamlığı və təhlükəsizliyi öndə gedən məsələdir. Məhz bu baxımdan koronavirus ilə bağlı qərarlar operativ qəbul olunur. Eyni zamanda Azərbaycan kimi sabit, enerji daşıyıcıları və əmək qüvvəsi ucuz olan, habelə infrastrukturu inkişaf edən ölkənin yaranmış vəziyyətdən istifadə edərək dəyər zəncirlərində iştirak payını artırmaq imkanları var. Azərbaycan da həmin imkandan istifadə edib qlobal şokun təsirini azaltmaq və daha az itki verməklə bu dövrü geridə qoymağa çalışır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Dünya Səhiyyə Təşkilatının ekspertləri Azərbaycana gələcəklər

Dünya Səhiyyə Təşkilatı (DST) dünyada koronavirusun yayılmasına qarşı mübarizənin gücləndirilməsi çərçivəsində Azərbaycana, Monteneqroya və Ukraynaya ekspertlər qruplarını göndərəcək.

AZƏRTAC BMT-nin Xəbərlər saytına istinadla bildirir ki, Dünya Səhiyyə Təşkilatının rəhbəri doktor Tedros Gebreyesus brifinqdə dünyada koronavirusun yayılmasına qarşı mübarizəni gücləndirməyə çağırıb. O deyib ki, yeni infeksiyaya qarşı dərman vasitələrinin yaradılması ilə məşğul olan elmi institutlarla hökumətlər arasında qarşılıqlı əlaqəni möhkəmlətmək vacibdir. Dünyanın aparıcı həkimlərinin və virusoloqlarının bu il fevral ayında Cenevrədə keçirilmiş görüşünün nəticələrinə əsasən, COVID-19 virusu əleyhinə dərmanların və vaksinlərin ən qısa müddətdə yaradılması üçün səylərin əlaqələndirilməsinə dair protokollar hazırlanıb.

DST rəhbəri Beynəlxalq Qadınlar Günü ərəfəsində koronavirusun yayılmasına qarşı fəal mübarizə aparan bütün qadın həkimlərə minnətdarlığını bildirib. Bütün dünyada tibb işçilərinin 70 faizinin qadınlar olmasını, amma rəhbər vəzifələrdə qadınların yalnız 25 faiz təmsil olunduğunu xatırladan doktor Gebreyesus bu vəziyyəti dəyişdirməyə çağırıb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# Beynəlxalq aləm

## Paraqvayda Denge qızdırması 46 nəfərin həyatına son qoydu



Paraqvayda təhlükəli Denge qızdırmasının epidemiyası davam edir. Xəstəliyə yoluxanların sayı 14 min nəfəri ötmüşdür. Bu barədə ölkənin Səhiyyə Nazirliyi məlumat vermişdir.

Yanvarın axırlarında epidemiya başlayandan bəri ölkədə azı 46 nəfər vəfat etmişdir. Hazırda epidemiyanın enişi müşahidə olunur. Xəstəxanalara müraciətlərin sayı üç dəfə azalmışdır və həftədə 10 min nəfər təşkil edir. Qeyd olunur ki, son bir ay ərzində 151841 nəfərdən analiz götürülmüşdür.

## Dünyada 102 min nəfərdən çox adam koronavirusa yoluxub




Dünyanın müxtəlif ölkələrində yeni tipli koronavirusa yoluxanların sayı 102 mindən çoxdur. Təxminən 3500 nəfər infeksiyadan dünyasını dəyişmiş, 57 min nəfərdən çox adam sağalmışdır. Bu barədə Çin Dövlət Səhiyyə Komitəsi məlumat vermişdir.

Eyni zamanda hökumət epidemiyanın enişə getdiyini bildirmişdir. Son bir gün ərzində 1678 nəfər xəstəxanalardan evə buraxılmış, 4873 nəfər karantindən çıxmışdır.

Ölənlərin sayına görə, Çindən sonra ikinci yerdə İtaliyadır. Bu ölkədə 197 nəfər vəfat etmiş, xəstəliyə yoluxanların sayı 5 min nəfərə çatmışdır. Ölüm hallarına görə, sonrakı yerləri İran (124 nəfər), Cənubi Koreya (42 nəfər) və ABŞ (14 nəfər) tutur.

## Yunan polisi qaçqınlara qarşı qaz qumbaralarından istifadə etdi



Yunanıstan təhlükəsizlik qüvvələri Türkiyədən gələn qaçqın axınının qarşısını alarkən qaz qumbaralarından və təzyiqli sudan istifadə etmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, Yunanıstan polisinin hərəkətləri Türkiyə-Yunanıstan sərhədində "Pazarkule" nəzarət-keçid məntəqəsinin yaxınlığındakı bufer zonada toplaşmış yüzlərlə qaçqında təşviş yaratmışdır. Miqrantlar arasında uşaqlar da daxil olmaqla xeyli yaralı var. Onlara tibbi yardım göstərilir.

Xatırladaq ki, son günlər on minlərlə qaçqın Türkiyədən Avropaya üz tutmuşdur.

## Əfqanıstanda terror aktında 32 nəfər həlak oldu



Əfqanıstanın paytaxtı Kabildə törədilmiş terror aktı nəticəsində 32 nəfər həlak olmuş, 80 nəfərdən çox adam yaralanmışdır. Bu barədə "Tolonews" telekanalı xəbər verir.

Məlumata görə, naməlum şəxslər Əfqanıstanın Baş Naziri Abdulla Abdullanın iştirak etdiyi toplantıda adamlara atəş açmışlar. Kabilin Musalla rayonunda silahlı hücum və partlayış xəzərlərin sabiq lideri Əbdüləli Məzarinin həlak olmasının ildönümünə həsr olunmuş xatirə mərasimində Əfqanıstanın Sülh Məsələləri üzrə Ali Şurasının sədri Kərim Xəlilinin çıxışı zamanı baş vermişdir. Hücumdan sonra rayonda toqquşmalar başlanmışdır. İki terrorçu zərərsizləşdirilmişdir.

Terror aktına görə məsuliyyəti İŞİD qruplaşması üzərinə götürmüşdür.

## Türkiyə İsveç millətçilərinin liderini ölkədən qovdu



Türkiyə polisi "İsveçli demokratlar" Millətçi Partiyasının sədri Yimmi Okessonu saxlayıb ölkədən qovmuşdur. O, qeyri-leqal miqrantların İsveçdə sığınacaq istəməməsi üçün təşviqat aparmaq məqsədilə Türkiyə-Yunanıstan sərhədinə gəlmişdi.

Məlumata görə, Okesson müvafiq mətnli vərəqələr paylamışdı. Lakin onun bu cür fəaliyyət göstərmək üçün icazəsi olmamışdı. Nəticədə polis siyasətçini saxlayıb hava limanına aparmışdır.

Okesson bundan əvvəl də təşviqat aparmaq məqsədilə Yunanıstan-Türkiyə sərhədinə səfər etmişdi. İsveçdə bir neçə siyasətçi onun hərəkətlərini tənqid etmişdir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6954
Sifariş 760
Qiyməti 40 qəpik